Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva Xalq artisti Əlibaba Məmmədovu təbrik edib



Bax 2

İlham Əliyev: "Bu il də Türkiyə-Azərbaycan əlaqələri uğurla inkişaf edəcək"



Bax 3

"Bu seçkilər Azərbaycan parlamentinə yeni fikirli insanların gəlməsinə şərait yaradır"



Bax 4



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir


# SƏS

QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 023 (5988) 6 fevral 2020-ci il. Qiymәti 40 qәpik

"Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı.




*Yaxud ölkə başçısının vurğuladığı ədalətli fikirlər həm məmurları, həm də sahibkarları düşündürməlidir!*

## Prezident İlham Əliyevin sərt xəbərdarlığı nəyə əsaslanır?

Bax 4



## "Bu gün hər bir şey Azərbaycan vətəndaşları üçün edilir"

**"Bu gün Azərbaycan islahat aparan ölkədir. Azərbaycanda çox ciddi islahatlar həyata keçirilir". Bunu SİA-ya Yeni Azərbaycan Partiyasının (YAP) İcra Katibinin müavini, Milli Məclisin Komitə sədri Siyavuş Novruzov deyib.**

## ŞOK: Dünya daha bir epidemiya ilə QARŞI-QARŞIYA!

Bax 5



Dünya Çindən yayılan koronavirus epidemiyası ilə mübarizəyə qoşularkən Cənubi Amerika ölkələri danq qızdırması ilə savaşır. Paraqvay Səhiyyə Nazirliyi bu xəstəlikdən 14 nəfərin dünyasını dəyişdiyini açıqlayıb. Kolumbiyada isə 23 nəfər qızdırmanın qurbanı olub. Səhiyyə naziri Xulio Mazzoleni mediada çox sayda şübhəli ölüm xəbərlərinin dərc edildiyini bildirib. Nazir 14 min 500 nəfərə xəstəlik diaqnozu qoyulması, 2 min 600-dən çox insanın danq qızdırmasından əziyyət çəkməsi faktını təsdiqləyib...



## "Azərbaycan Prezidentinin siyasətinin xalq tərəfindən dəstəklənməsini şərtləndirən əsas amil görülən işlərdir"

*Azərbaycan Prezidenti İlham Əliyev regionların 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramının icrasının birinci ilinin yekunlarına həsr olunmuş konfransda keçən il ölkəmizin bütövlükdə uğurla inkişaf etdiyini söylədi.*

Bax 5

## "Barselona"ya bəd xəbər: Messi oyunlara zədəli çıxır



"Barselona"nın futbolçusu Lionel Messi zədəli vəziyyətdə matçlarda oynayır. Qol.az "ESPN"ə istinadən xəbər verir ki, 32 yaşlı hücumçu artıq bir neçə həftədir ki, ombasında ağrı hiss edir. Ancaq buna baxmayaraq, argentinalı oyunçu matçlarda meydana çıxır. Bildirilir ki, buna səbəb Kataloniya təmsilçisində hazırda Messini əvəzləyəcək futbolçunun olmamasıdır.

Bax 16

## Cari ildə manatın məzənnəsi necə olacaq?

Bax 2



Dünyanın əksər ölkələri iqtisadi böhranla üzləşdiyi halda, Azərbaycanda bunun əksi, dinamik artım və iqtisadi yüksəliş müşahidə olunur. Bir çox dünya ölkələrinin xarici ticarət dövriyyəsində mənfi saldo qeydə alınması fonunda isə ölkəmizin xarici ticarət dövriyyəsinin müsbət saldosu təqdirəlayiqdir və bu fakt özü müsbət dinamikanın, iqtisadi tarazlığın və inkişafın...

Nejdət Ünüvar: Parlament seçkiləri Azərbaycanda aparılan islahatlara ciddi töhfə verəcək



Bax 4

Qulu Məhərrəmli özünü və tarixi unudub!



Bax 14

Türkmənistan Prezidenti Polad Bülbüloğlunu 75 illiyi münasibətilə təbrik edib



Bax 2

# “Qırğızıstan bizim üçün çox yaxın ölkədir, qardaş ölkədir”

*Prezident İlham Əliyev Qırğızıstanın Xarici İşlər nazirini qəbul edib*



***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 5-də Qırğız Respublikasının Xarici İşlər naziri Çingiz Aydarbekovu qəbul edib. AZƏRTAC xəbər verir ki, nazir Çingiz Aydarbekov Qırğız Respublikasının Prezidenti Sooronbay Jeenbekovun salamlarını dövlətimizin başçısına çatdırdı. Prezident İlham Əliyev Qırğız Respublikasının Prezidenti Sooronbay Jeenbekovun salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Qırğızıstan Prezidentinə çatdırmağı xahiş etdi.***

Azərbaycan Prezidenti İlham Əliyev:

-Xoş gəlmisiniz, sizi görməyimə şadam. Sabah sizin mühüm tədbiriniz başlayır. Əminəm ki, tədbir bizim ötən il keçirdiyimiz Sammit zamanı dövlət başçıları tərəfindən verilən bütün tapşırıqlar ruhunda yaxşı keçəcək. Əlbəttə, təşkilatımız ildən-ilə güclənir və bütün türkdilli dövlətlər arasında əməkdaşlığın möhkəmlənməsi üzrə çox mühüm məsələləri həll edir. Son zamanlar həm siyasi qarşılıqlı fəaliyyət planında, eyni zamanda, iqtisadi inteqrasiya üzrə və mədəniyyət, təhsil sahələrində çoxlu təşəbbüslər irəli sürülüb. Həm fond yaradılıb, həm də akademiya fəaliyyət göstərir. Beləliklə, biz öz işimizi daha məzmunlu edirik.

Hesab edirəm ki, ötən il ölkələrimiz arasında ikitərəfli münasibətlərin inkişafı baxımından uğurlu olub. Mən beynəlxalq tədbirlər çərçivəsində Prezidentlə bir neçə dəfə görüşmüşəm. Əməkdaşlığın möhkəmlənməsi istiqamətində bu il də mühüm tədbirlər nəzərdə tutulub. Qırğızıstan bizim üçün çox yaxın ölkədir, qardaş ölkədir və biz ikitərəfli qarşılıqlı fəaliyyəti inkişaf etdirmək istəyirik. Beləliklə, düşünürəm ki, bu il siz öz həmkarınızla birgə həyata keçirəcəyiniz tədbirləri müəyyən edəcəksiniz.

Qırğızıstanın Xarici İşlər naziri Çingiz Aydarbekov:

-Hörmətli İlham Heydər oğlu, çox sağ olun. İlk növbədə, Sizə təşəkkürümü bildirmək istərdim. Gərgin iş rejiminə baxmayaraq, Siz görüşmək və hər şeydən əvvəl Qırğızıstan-Azərbaycan münasibətlərinin perspektivlərini müzakirə etmək üçün vaxt tapdınız. Siz qeyd etdiyiniz kimi, ötən il və ondan əvvəlki il Sizin şəxsi diqqətiniz və qardaşlıq, dostluq münasibətlərimizi möhkəmləndirmək istiqamətində bizim Prezidentin səyləri sayəsində əməkdaşlıq çox fəal şəkildə inkişaf edib. Ötən il türkdilli dövlətlərin başçılarının Bakı Sammitində tarixi hadisə baş verdi, təşkilatımız böyüdü, bundan başqa, Avropada Türk Şurasının ofisi açıldı. Zənnimizcə, Sizin bizim Prezidentimizlə çox vacib görüşünüz oldu. Həmin görüşdə siz tərəflərin hökumətlərinin icra etdikləri, reallaşdırdıqları konkret perspektiv, aktual razılaşmaları müəyyən etdiniz. Onların arasında Qırğız-Azərbaycan məktəbinin, Qırğız-Azərbaycan dostluq parkının tikintisi haqqında razılaşma da var. Ötən il dekabrın 24-də biz məktəbin təməlini qoyduq. Bu il yanvarın 10-da isə şəxsən bizim Prezidentin iştirakı ilə, - o, qardaşlıq münasibətlərimizə böyük diqqət yetirir, - park zonasının təməlqoyma mərasimi oldu. Bu, şəhərimizin ən mötəbər nöqtəsidir və şəhərimizin sakinləri bunu böyük ruh yüksəkliyi ilə qarşıladılar. Biz Sizin Qırğız Respublikasına rəsmi səfərinizi səbirsizliklə gözləyirik.

# Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva Xalq artisti Əlibaba Məmmədovu təbrik edib



Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva rəsmi “Instagram” səhifəsində Xalq artisti Əlibaba Məmmədovun 90 illik yubileyi və “Şərəf” ordeni alması münasibətilə paylaşım edib. SİA xəbər verir ki, paylaşımda deyilir: “Dərin tarixi köklərə malik Azərbaycan xanəndəlik məktəbinin layiqli davamçısı, Azərbaycan Respublikasının Xalq artisti Əlibaba Məmmədovu 90 illik yubileyi və “Şərəf” ordeni ilə təltif olunması münasibətilə səmimi-qəlbdən təbrik edirəm!

Özünəməxsus ifa üslubu, məlahətli səsi və yüksək səhnə mədəniyyəti Əlibaba Məmmədova bütün xalqımızın böyük sevgi və hörmətini qazandırmışdır. Zəngin təcrübəsindən istifadə edərək yeni xanəndələr nəslinin yetişdirilməsi üçün əlindən gələni əsirgəməyən Əlibaba Məmmədovun muğam ifaçılığı məktəbinin inkişaf etdirilməsində böyük xidmətləri var. Bu əlamətdar gündə sevimli xanəndəmizə ən xoş arzularımı çatdırır, ona möhkəm cansağlığı və doğma və yaxınlarının əhatəsində firavan həyat arzulayıram”.

## *Rəsmi xronika*

Prezident İlham Əliyev Mövlud Çavuşoğlunun “Dostluq” ordeni ilə təltif edilməsi haqqında Sərəncam imzalayıb. Sərəncamda qeyd edilir ki, Azərbaycan Respublikası ilə Türkiyə Cümhuriyyəti arasında dostluq və qarşılıqlı əməkdaşlıq əlaqələrinin möhkəmləndirilməsində xüsusi xidmətlərinə görə Mövlud Çavuşoğlu “Dostluq” ordeni ilə təltif edilsin.

* * *

Prezident İlham Əliyev Balakən rayonunun Yevlax-Zaqatala-Gürcüstanla dövlət sərhədi (155 km)-Qullar-Tülü-Talalar-Şərif-Acılıqbinə-Qaysa avtomobil yolunun tikintisi ilə bağlı tədbirlər haqqında Sərəncam imzalayıb.

# Namık Kamal Yıldırım: “Parlament seçkiləri Azərbaycanda son vaxtlar aparılan islahatların tərkib hissəsidir”



Azərbaycanda keçiriləcək parlament seçkiləri son vaxtlar ölkədə aparılan islahatların tərkib hissəsidir. Bu, Azərbaycanın daha da inkişafı baxımından önəmlidir.

Bu sözləri AZƏRTAC-a müsahibəsində Türkiyənin “Can Azərbaycan” media şirkətinin təsisçisi və rəhbəri Namık Kamal Yıldırım bildirib. “Can Azərbaycan” media şirkəti tərəfindən Türkiyədə nəşr olunmuş, 20 Yanvar hadisələrindən bəhs edən “Ağla karanfil ağla” kitabının təqdimatı ilə əlaqədar ötən həftə Bakıda olduğunu bildirən N.K.Yıldırım deyib: “Şəhərdə çox gözəl ab-hava, canlanma gördüm. Söhbət etdiyim, görüşdüyüm hər kəs fevralın 9-da keçiriləcək parlament seçkilərinə hazırlaşırdı. Azərbaycan dövləti tərəfindən seçkilərin demokratik və şəffaf keçirilməsi istiqamətində aparılan işlər göz qarşısındadır. Bu, təqdirəlayiq haldır”.

Türkiyədən parlament heyətinin seçkiləri müşahidə etmək üçün Azərbaycana gedəcəyini xatırladan müsahibimiz bildirib: “Namizədlərin əksəriyyəti gənclərdən ibarətdir. Bu da gənc nəslin ölkənin parlaq gələcəyinə olan inamının, eyni zamanda, gənclərə göstərilən etimadın bariz göstəricisidir. Fikrimcə, son 10 il ərzində Azərbaycanın keçdiyi inkişaf yolunu dünyanın heç bir ölkəsində görmək mümkün deyil. Azərbaycanın gündən-günə daha da çox inkişaf etməsini görmək qardaş ölkə olaraq Türkiyə üçün də qürurvericidir”.

# Türkmənistan Prezidenti Polad Bülbüloğlunu 75 illiyi münasibətilə təbrik edib



Türkmənistan Prezidenti Qurbanqulu Berdiməhəmmədov Azərbaycan Respublikasının Rusiya Federasiyasındakı fövqəladə və səlahiyyətli səfiri, Azərbaycanın və Türkmənistanın Xalq artisti Polad Bülbüloğluna 75 illik yubileyi münasibətilə təbrik göndərib.

AZƏRTAC bu barədə “Turkmenistan seqodnya” Dövlət İnformasiya Agentliyinə istinadla xəbər verir. Türkmənistan lideri öz təbrik məktubunda Polad Bülbüloğlunun uzun illər ərzində ölkələrimiz və xalqlarımız arasında dostluq və qardaşlıq münasibətlərinin möhkəmlənməsinə böyük töhfə verdiyini qeyd edib. “Məhz buna görə Türkmənistanda sizə tanınmış bəstəkar və gözəl müğənni kimi böyük ehtiramla yanaşırlar. Sizin yaradıcılığınız türkmən xalqının qəlbində xüsusi yer tutur”, - deyə Q.Berdiməhəmmədov vurğulayıb. Türkmənistan Prezidenti Polad Bülbüloğluna möhkəm cansağlığı, xoşbəxtlik və gələcək fəaliyyətində uğurlar arzulayıb.

# İlham Əliyev: "Bu il də Türkiyə-Azərbaycan əlaqələri uğurla inkişaf edəcək"

## *Prezident İlham Əliyev Türkiyənin Xarici İşlər nazirinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib*



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 5-də Türkiyə Respublikasının Xarici İşlər naziri Mövlud Çavuşoğlunun başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

AZƏRTAC xəbər verir ki, nümayəndə heyətini salamlayan Prezident İlham Əliyev əmin olduğunu bildirib ki, bu il də Türkiyə-Azərbaycan əlaqələri uğurla inkişaf edəcək:

-Xoş gəlmisiniz, hörmətli Mövlud bəy. Sizi yenidən görməyimə çox şadam. Sabah Bakıda Xarici İşlər nazirləri səviyyəsində çox önəmli toplantı keçiriləcəkdir. Bu, Zirvə Görüşündən sonra Xarici İşlər nazirlərinin Bakıda keçirilən birinci toplantısıdır. Bildiyiniz kimi, keçən ildən başlayaraq Azərbaycan Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasına sədrliyi öz üzərinə götürüb. Biz çalışacağıq ki, bir il ərzində bu təşkilatın sədri kimi bütün üzv ölkələrin dəstəyi ilə fəal iş görək və bu ölkələr arasındakı əməkdaşlığı, dostluğu, qardaşlığı daha da möhkəmləndirək. Eyni zamanda, sizin səfəriniz yaxşı fürsətdir ki, biz ikitərəfli məsələləri bir daha müzakirə edək. Biz sizinlə bu yaxınlarda Davosda da görüşdük. Bizim görüşlərimiz müntəzəm olaraq keçirilir. Yaxın gələcəkdə Bakıda Türkiyə-Azərbaycan Strateji Əməkdaşlıq Şurasının toplantısı keçiriləcəkdir və hörmətli Prezident Rəcəb Tayyib Ərdoğan bizim qonağımız olacaqdır.

Əminəm ki, bu il də Türkiyə-Azərbaycan əlaqələri uğurla inkişaf edəcək. Keçən il çox böyük uğurlarımız olubdur və birlikdə TANAP-ın Avropa sərhədinə çatdırılmasını qeyd etdik. Bundan başqa, bir çox önəmli layihələr uğurla icra edilir. O ki qaldı Bakı-Tbilisi-Qars dəmir yolunun fəaliyyətinə, indi bu fəaliyyət daha da genişmiqyaslıdır və artıq bir çox mənbələrdən bu yol vasitəsilə yüklər Avropa istiqamətinə və Asiya istiqamətinə göndərilir. Əminəm ki, bu yolun önəmi getdikcə atacaq və bu, bizim birgə uğurlu layihəmizdir.

Fürsətdən istifadə edərək bu yaxınlarda Çindən Azərbaycan vətəndaşlarını təxliyə etdiyinizə görə sizə dərin minnətdarlığımı bildirirəm. Bu, Türkiyə-Azərbaycan qardaşlığının növbəti təzahürüdür. Siz Azərbaycan vətəndaşlarına öz vətəndaşlarınız kimi münasibət göstərdiniz və göndərilən təyyarəyə onları mindirib sağ-salamat Türkiyəyə - onların doğma vətəninə gətirdiniz. Əlbəttə ki, Azərbaycanda bu addım, bu hərəkət çox yüksək qiymətləndirilir.

Eyni zamanda, keçən ay Strasburqda Avropa Şurası Parlament Assambleyasının toplantısında Türkiyə nümayəndələri tam heyətlə Azərbaycanın haqq işinə öz dəstəyini göstərmişlər, bir daha həmrəylik göstərmişlər. Bir daha göstərmişlər ki, onlar həqiqətin, ədalətin yanındadırlar. Azərbaycan nümayəndə heyəti də öz növbəsində, hər zaman Türkiyəni dəstəkləyir. Biz sizinlə Avropa Şurasının Parlament Assambleyasında fəaliyyət göstərən insanlar kimi bu təşkilatı yaxşı tanıyırıq. Əfsuslar olsun ki, 20 il ərzində bu təşkilat Azərbaycanı hədəf seçib, Türkiyəni isə daha uzun müddət ərzində. Xatırlayıram, ilk dəfə mən Azərbaycan nümayəndə heyətinin rəhbəri kimi Avropa Şurası Parlament Assambleyasında fəaliyyətimə başlayanda mənim ilk addımım Azərbaycan heyətini Türkiyə heyəti ilə görüşdürmək idi. Biz elə birinci gün görüşüb razılaşdıq, anlaşdıq ki, bütün məsələlərdə bir-birimizə daim dəstək olacağıq. Əfsuslar olsun ki, hesab edirəm o illərdən bəri Avropa Şurasında deqradasiya prosesi gedir. Bu təşkilat beynəlxalq müstəvidə öz əhəmiyyətini itirməkdədir. Təşkilat dünyada gedən proseslərə heç bir təsir etmək gücündə deyil. Təşkilatın nüfuzu çox aşağı düşüb və bunun yəqin ki, başlıca səbəbi təşkilatda hökm sürən riyakarlıq, ikili standartlar və ədalətsizlikdir.

Sözün düzü, Azərbaycan xalqı bu təşkilata olan ümidlərini çoxdandır ki, itirib. Çünki təxminən 20 il ərzində müxtəlif dövrlərdə siyasi sifarişi icra edərkən Azərbaycan hədəf seçilibdir, bizim haqqımızda olmayan yalanlar uydurulur, yayılır. Azərbaycan sanki geridə qalmış bir ölkə kimi təqdim edilir, Azərbaycanda gedən müsbət proseslər qeydə alınmır. Azərbaycanı ancaq qara rənglərlə boyamağa çalışırlar və yenə də əsassız, saxta məlumat əsasında məruzələr dərc olunur və qətnamələr qəbul edilir. Sanki Azərbaycanda siyasi məhbuslar var, sanki Azərbaycanda demokratik prosesə əngəl törədilir. Bütün bunlar hamısı yalandır, Azərbaycanda siyasi məhbus yoxdur, biz bunu yaxşı bilirik. Ancaq o yerlərdə ki, siyasi məhbuslar var, o ölkələr diqqətdən kənarda qalır. Mən Ermənistanı misal gətirə bilərəm. Ermənistanın keçmiş Prezidenti bir ildən çoxdur ki, həbs olunub, o prezident fəal siyasətlə məşğul olmaq haqqında öz sözünü deyəndən sonra həbs olunub və bir ildən çoxdur ki, həbsxanada saxlanılır. İki il bundan əvvəl Ermənistana rəhbərlik edən prezident də indi istintaq altındadır. Onun haqqında cinayət işi açılıbdır və mətbuatda yayılan məlumata görə onun işi məhkəməyə verilibdir. Bunun da başlıca səbəbi keçmiş prezidentlərin indiki iqtidarın fəaliyyətini tənqid etmələridir. Ermənistanda jurnalistlər həbs olunur. Mənə verilən məlumata görə, bu yaxınlarda bir media orqanının rəhbəri həbs olunub. Bir neçə ay bundan əvvəl bir jurnalist həbsxanada aclıq aksiyasına başlayaraq aclıqdan vəfat edib. Ancaq bu faktların heç biri Avropa Şurasında qeydə alınmır. Nə üçün? Nə üçün Ermənistana qarşı bir münasibət var, Azərbaycana, Türkiyəyə qarşı başqa münasibət? Biz bu sualın cavabını yaxşı bilirik və bir daha qeyd etmək istəyirəm, yaxşı olardı ki, Avropa Şurası bu məsələlərlə məşğul olsun. Avropa Şurası Avropanın aparıcı ölkələrində polis qəddarlığına, zorakılığa, insanların polis tərəfindən öldürülməsinə diqqət yetirsin, o ölkələri qınasın, o ölkələrin hüquq mühafizə orqanlarına irad tutsun. Biz bunu eşitmirik, biz televiziyada görürük. Deməli olar ki, müntəzəm olaraq Avropanın aparıcı paytaxtlarında insanlar döyülür, əzilir, təhqir edilir, öldürülür, insanların gözləri çıxarılır, insanların üstünə itlər göndərilir, atlarla insanları əzirlər. Sanki bu, demokratiya imiş. İndi biz bunu deyəndə, - mən bunu bir çox hallarda Avropadan gəlmiş və bizi tənqid etmək istəyən şəxslərə açıq demişəm, - onlar cavab vermirlər, susurlar. Amma otaqdan çıxan kimi yenə də öz bədnam fəaliyyətinə başlayıb bizi ləkələmək istəyirlər. Biz buna əlbəttə ki, dözə bilmərik. Biz Türkiyə ilə birlikdə mübarizə aparırıq, necə ki, biz sizinlə birlikdə mübarizə aparmışıq.

Siz Avropa Şurasında böyük vəzifəyə seçilmişdiniz, Avropa Şurası Parlament Assambleyasının prezidenti olmusunuz. Sizin dövrünüzdə bu təşkilatda ədalətli mövqe sərgilənirdi. Siz imkan vermirdiniz ki, bu təşkilat kiminsə əlində alətə çevrilsin. Siz çox dəyərli və müstəqil insan kimi bütün təzyiqlərə davam gətirirdiniz və müstəqil siyasət aparırdınız. Ona görə o dövrdə Avropa Şurası elə bil ki, öz əsl simasını bərpa edirdi. Ancaq bu gün bu təşkilat əfsuslar olsun, bir daha demək istəyirəm ki, heç bir nüfuza malik deyil, onların qəbul etdiyi qərarlar bizim üçün tamamilə əhəmiyyətsizdir. Azərbaycanla bağlı qəbul edilmiş son qətnamə bizim üçün heç bir əhəmiyyət kəsb etmir və bu qətnamənin bizim üçün dəyəri bir kağız parçasından artıq deyil. Orada səslənən uydurma ittihamların heç birini biz qəbul etmirik və onların heç bir dırnaqarası tələbini icra etməyəcəyik.

Bizim işimiz isə haqq işidir. Türkiyə bu gün dünya miqyasında güc mərkəzidir və biz huna çox sevinirik. Türkiyənin bütün uğurları bizim üçün də çox əhəmiyyətlidir, bizə ruh verir. Biz birlikdə böyük işlər görmüşük və həmişə haqqın, ədalətin yanında olmuşuq. Əminəm ki, bundan sonra da belə olacaq. Heç bir kənar qüvvə nə Türkiyəyə, nə Azərbaycana təsir edə bilməz. Biz iki qardaş ölkə kimi bundan sonra da dostluq, qardaşlıq, müstəqillik yolu ilə gedəcəyik. Bir daha xoş gəlmisiniz.

x x x

Türkiyənin Xarici İşlər naziri **Mövlud Çavuşoğlu:**

-Hörmətli cənab Prezidentim. Əvvəla, bizi qəbul etdiyiniz üçün çox təşəkkür edirəm. Prezidentimiz, qardaşınız Rəcəb Tayyib Ərdoğanın Sizə salamlarını və ən xoş arzularını gətirdim.

**Prezident İlham Əliyev:** Sağ olun.

**Mövlud Çavuşoğlu:** Sizi qısa müddət əvvəl Davosda görməkdən qürur duymuşduq. Amma daha da önəmlisi bəzi panellərdə təkcə qardaş Azərbaycanın gələcəyi üçün deyil, bölgəmiz üçün ortaya qoyduğunuz baxışları da dinləmə imkanımız olmuşdur.

Türk Şurasına sədrliyi uğurla davam etdirən Azərbaycanın türk dünyasının birliyi üçün töhfələrini ən yaxından bilən bizlərik. Bu baxımdan Zirvə Görüşü çox uğurla keçmişdir. Sizin sədrliyinizlə bu Zirvə Görüşündə qəbul edilən qərarlar nəticəsində, inşallah, sabah Xarici İşlər nazirləri olaraq biz də toplantımızı keçirəcəyik və dostlarımızla işlərimizi görəcəyik.

Hörmətli cənab Prezidentimiz, Çindən bizim vətəndaşlarımızla birlikdə gələn azərbaycanlı qardaşlarımız üçün bizə təşəkkür etməyinizə ehtiyac yoxdur. Çünki biz bir millətin övladlarıyıq. Ümummilli lider, cənnətməkan Heydər Əliyev atamızın da dediyi kimi, biz iki dövlətik, amma bir millətik. Beləliklə, əlbəttə, o qardaşlarımızı, canlarımızı bizim vətəndaşlarımızdan ayrı tuta bilməzdik, orada qoya bilməzdik. İndi Türkiyədə də rahatdırlar, yaxşıdırlar, mənə də yazırlar, əlaqələrimiz var. Siz də olsaydınız, eynisini edərdiniz.

Bundan başqa, Avropa Şurasında olsun, digər platformalarda olsun, əlbəttə, bir-birimizi dəstəkləyəcəyik. Siz dediyiniz kimi, hörmətli cənab Prezidentimiz, ikili standart hər yerdə var. Təəssüf ki, ideologiyalara boyun əyən təşkilatlar var. Bunlardan biri də Avropa Şurasıdır. Yeni baş katibə, yeni sədrə, hamısına deyirik ki, mövqeyinizi itirirsiniz, bunları düzəltmək üçün biz töhfə verə bilərik. Amma hazırda təəssüf ki, vəziyyət budur.

Biz bir-birimizi dəstəkləməyi Sizdən öyrəndik, öyrənirik. Sizin "Türkiyə burada yoxdur, amma mən varam, biz varıq" sözlərinizi heç bir türk, Türkiyə Cümhuriyyəti vətəndaşı unuda bilməz. Sizin liderliyinizlə bütün bu çətinliklərə qarşı işbirliyimizi, əməkdaşlığımızı davam etdirəcəyik və Sizin liderliyinizlə Türkiyəni və Azərbaycanı, inşallah, hədəflərinə çatdıracağıq. İkili standartlarla, bizə bu cür mövqe nümayiş etdirənlərə qarşı biz də mübarizəmizi, inşallah, birlikdə davam etdirəcəyik. Hər zaman söylədiyimiz kimi, Türkiyənin olduğu qədər Azərbaycanın haqqını və haqlı mübarizəsini də müdafiə etmək bizim üçün vəzifədir. Bizi qəbul etdiyiniz üçün bir daha təşəkkürlərimi bildirirəm.

Prezident İlham Əliyev: Sağ olun, təşəkkür edirəm. Lütfən, mənim də səmimi salamlarımı əziz qardaşım, Prezident Rəcəb Tayyib Ərdoğana çatdırın. Biz onu Azərbaycanda səbirsizliklə gözləyirik.

Hörmətli Mövlud bəy, sizi bir daha salamlayıram, Azərbaycana xoş gəlmisiniz. Siz bizim əziz qonağımızsınız. Siz Türkiyə-Azərbaycan əlaqələrinin inkişafı üçün çox böyük xidmətlər göstərirsiniz. Siz Azərbaycanı ürəkdən sevən bir insansınız və müxtəlif vəzifələrdə daim Azərbaycanı dəstəkləmisiniz, müdafiə etmisiniz. Biz sizinlə çoxdandır bir-birimizi tanıyırıq, Avropa Şurası Parlament Assambleyasında bərabər fəaliyyət göstərmişik və daim bir-birimizi dəstəkləmişik.

Sizin Türkiyənin inkişafında çox böyük xidmətləriniz var. Bu gün qardaş Türkiyənin dünya miqyasında güc mərkəzinə çevrilməsində sizin xüsusi rolunuz var. Sizi Azərbaycanda çox yaxşı tanıyırlar. Azərbaycanda sizi sevirlər, ölkəmizin, xalqımızın dostu kimi, qardaşı kimi sizə böyük hörmət göstərirlər. Bütün bu xidmətləri nəzərə alaraq, siz Azərbaycan dövlətinin yüksək ordeni - "Dostluq" ordeni ilə təltif edilirsiniz və icazə verin, bu yüksək ordeni sizə təqdim edim.

Prezident İlham Əliyev "Dostluq" ordenini Mövlud Çavuşoğluna təqdim etdi.

**Prezident İlham Əliyev:** Təbrik edirəm.

**Mövlud Çavuşoğlu:** Hörmətli cənab Prezident, Sizin təqdirinizə layiq olmaq mənim üçün şərəfdir. Söylədiyiniz gözəl sözlərə görə minnətdarlığımı bildirmək istəyirəm. Siyasətə başladığım gündən bəri təkcə Türkiyənin haqqını deyil, Azərbaycanın haqqını da müdafiə etməyi özümə borc bilirəm. Əsasən bunu da Sizdən öyrəndim. Avropa Şurasına ilk getdiyimiz zaman Siz də Azərbaycan nümayəndə heyətinin rəhbəri idiniz. Orada Azərbaycan qədər Türkiyəni də müdafiə edirdiniz. Yenə, bir az əvvəl söylədiyim kimi, Türkiyənin olmadığı yerlərdə, xüsusilə "Türkiyə yox, amma biz varıq, mən varam" deyərək Türkiyənin haqqını hər zaman müdafiə etdiniz. Türkiyə və Azərbaycan iki qardaş ölkə olaraq hər zaman bir yerdə olacaqdır. Sizin liderliyiniz sayəsində ikitərəfli münasibətlərimiz daha çox gücləndi, Prezidentimiz Ərdoğan və Azərbaycan Prezidenti olaraq Zati-alinizin liderliyi ilə.

Sizin Azərbaycanla, bölgəmizlə bağlı mövqeyinizi hər kəs təqdir edir. Amma biz bunun reallıqda faydalarını çox gördük. Ümummilli lider, cənnətməkan Heydər Əliyev atamızın sözü bizim üçün rəhbərdir: İki dövlətik, amma bir millətik. Bir millətin övladları olaraq, əlbəttə, bir-birimizi müdafiə edəcəyik, bir-birimizə kömək edəcəyik. Mən Xarici İşlər naziri olaraq, - Elmar qardaşım qısqanmasın, - hər zaman təkcə Türkiyənin deyil, Azərbaycanın da Xarici İşlər naziri kimi çalışdım.

Bizim üçün ən böyük xoşbəxtlik böyüklərimizin bizi təqdir etməsidir. Amma bizim üçün ən böyük şərəf və orden də Azərbaycan və Türkiyə bayraqlarının - türk bayrağının bütün dünyada dalğalanmasıdır. Şanlı bayraqlarımızın dünyada dalğalanması üçün bundan sonra da təkcə siyasi həyatımda deyil, ömür boyu Türkiyə üçün çalışdığım qədər qardaş Azərbaycan və Azərbaycan xalqı üçün də çalışmağa davam edəcəyəm. Bu orden üçün çox təşəkkür edirəm, hörmətli cənab Prezidentim.

**Prezident İlham Əliyev:** Təşəkkür edirəm.

**Mövlud Çavuşoğlu:** Sizə ehtiramımı bildirirəm.

x x x

Sonda xatirə şəkli çəkdirildi.

# Prezident İlham Əliyevin sərt xəbərdarlığı nəyə əsaslanır?

*Yaxud ölkə başçısının vurğuladığı ədalətli fikirlər həm məmurları, həm də sahibkarları düşündürməlidir!*



***Sirr deyil ki, Prezident İlham Əliyev bütün çıxışlarında öz işlərində nöqsanlar buraxan bəzi məmurları kəskin şəkildə qınayıb və eyni zamanda, onlardan bəziləri cəzalandırılıb. Ümumiyyətlə, ölkədə aparılan çoxşaxəli islahatların uğurlu nəticələr əldə etməsi üçün ölkə başçısının göstərdiyi qətiyyət həm də, belə nəticəyə gəlməyə kifayət qədər zəmin yaradır ki, Onun əsas məqsədi xalqın sosial rifah halının daha da yaxşılaşdırılması, dövlətin iqtisadi dayaqlarının daha da möhkəmləndirilməsidir. Daha dəqiq desək, bu istiqamətdə hesablanmış mütərəqqi addımların dinamikliyi, davamlığı da bu reallığı ehtiva etməkdədir.***

### Azərbaycan vətəndaşı hansı pullardan məhrum idi?

O da əbəs deyil ki, Prezident İlham Əliyev regionların "2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın icrası ilə bağlı keçirilən konfransda kölgə iqtisadiyyatı barədə də danışıb və vurğulayıb ki, artıq bu hal dözülməz dərəcəyə gəlib çıxıb və mütləq qarşısı alınmalıdır. O, eyni zamanda bildirib ki, vergi və gömrük orqanları keçən il proqnozdan əlavə 1 milyard manatdan çox vəsait toplayıb və bu vəsait əvvəllər kiminsə cibinə gedib və bu pullardan Azərbaycan vətəndaşı məhrum idi.

"Məmurlar görən kimi haradasa iş başlayır, bəzi hallarda dərhal cumurlar ora, öz payını tələb edirlər, yaxud da ki, nəsə qoparmaq istəyirlər", ölkə başçısı vurğulayıb.

### Sahibkarlar da unutmamalıdırlar ki...

Daha bir həqiqət budur ki, ölkə iqtisadiyyatına önəmli təsirlərini göstərən sahibkarlıq faktoruna bir sıra hallarda müdaxilələr olur ki, bu da həmin sahənin inkişafına öz mənfi təsirlərini göstərir. Halbuki, dövlətin sahibkarlara dəstəyi daim diqqət mərkəzində olub, müxtəlif imkanlar yaradılıb. Ancaq sahibkarlar da unutmamalıdır ki, onlara yaradılan bu imkanlardan sui-istifadə etməməlidirlər. Dövlət başçısının fikrincə, sahibkarlara çox böyük imkanlar yaradılıb, ona görə də onlardan tələb olunan odur ki, dürüst olsunlar, təmiz işləsinlər, əyri yola getməsinlər, vergiləri gizlətməsinlər. O cümlədən, sahibkarlardan kimsə nə isə tələb edərsə, bu barədə müvafiq dövlət instansiyalarına məlumatlar verilməlidir. SİTAT: "Vergiləri tam ödəsinlər, vergilərdən başqa heç kimə, heç bir quruma, heç bir şəxsə bir manat pul verməsinlər. Çünki rüşvətxorluğun iki tərəfi var: alan və verən. İndi mən potensial rüşvət verənlərə deyirəm ki, dayandırın bunu. Əgər kimsə sizdən əsassız nəsə tələb edirsə, Prezident Administrasiyasına, Nazirlər Kabinetinə, mərkəzi icra orqanlarına dərhal məlumat verin".

### Prezident İlham Əliyev: "Kölgə iqtisadiyyatı olmamalıdır, vəssalam!"

Prezident əlavə edib ki, dövlət kölgə iqtisadiyyatına göz yummur, sahibkar da gərək öz biznesini kölgədən 100 faiz çıxarsın. "Kölgə iqtisadiyyatı olmamalıdır, vəssalam, çox sadə. Düzdür, hər yerdə var, hər ölkədə var. Bizdə bu, dözülməz dərəcəyə gəlib çıxmışdır", Prezident vurğulayıb.

Ölkə rəhbəri 2020-ci ilin yanvar ayında kölgə iqtisadiyyatı ilə mübarizə sayəsində vergi orqanlarının proqnozdan əlavə 120 milyon manat, gömrük orqanlarının isə 40 milyon manat vəsait yığdığını deyib. Prezident bildirib ki, dövlət orqanları kölgə iqtisadiyyatına son qoyulması ilə bağlı keçid dövrü müəyyən edib.

Onun sözlərinə görə, bəri başdan çox sərt tədbirlər görmək düzgün olmaz, insanlar buna gərək yavaş-yavaş öyrəşsinlər. SİTAT: "Amma biz bu güzəşt müddətini də çox uzada bilmərik. Ona görə bu il bütün iqtisadiyyat kölgədən çıxmalıdır, bütün sahibkarlar vergisini ödəməlidir. Əgər kimsə mənim bu sözlərimdən sonra yenə də köhnə qayda ilə işləmək, kiməsə arxalanmaq istəyəcəksə, bilsin ki, bu alınmayacaq. Heç kimə güzəşt yoxdur. Bunu indi hamı bilir. Hər kəs bərabərdir. Heç bir toxunulmaz sahibkar da yoxdur, heç bir toxunulmaz məmur da yoxdur. Hər kəs qiymətini də, mükafatını da, cəzasını da öz əməlinə görə alacaq. Bunu bilməlisiniz".

### Dövlət başçısı: "Get bunu düzəlt, bax, düzəltməsən, onda özündən küs"

Prezident İlham Əliyev deyib ki, sahibkarlarla şüar və bəyanatlarla yox, açıq söhbət aparılmalı, onlara pozuntu halları göstərilməlidir. O söyləyib ki, dövlət nümayəndəsi sahibkarlara harada pozuntuya yol verdiyini göstərsin, dostcasına desin ki, "get bunu düzəlt, bax, son dəfə sənə deyirəm, düzəltməsən, onda özündən küs".

"Elə etməliyik ki, 2020-ci ildən başlayaraq, bütün bu bicliklər, manipulyasiyalar, saxtakarlıqlar, kassadan kənar ödəmələr qıraqda qalsın. Bəyan edilməmiş yüklərin gətirilməsi, yükün içində bir məhsul ola-ola başqa məhsulun bəyan edilməsi - bütün bunları dövlət orqanları bilir və bilirdi. Sadəcə olaraq, bəziləri göz yumurdular, sövdələşirdilər. Daha bu dövr bitdi. Mən sizə bunu deyirəm, qurtardı. Ona görə mən dediyim kimi işləməlisiniz, vəssalam," - Prezident İlham Əliyev deyib.

Beləliklə, Prezident İlham Əliyevin çıxışından həm də belə bir nəticə hasil etmək olar ki, o həm məmurlardan, həm də sahibkarlardan dürüst olmağı tələb edib və bu tələbin sərtliyi həm də xəbərdarlıq kimi anlaşılmalıdır. Daha dəqiq desək, artıq ölkəmiz inkişaf yolunu davam edir və bu inkişafın qarşısını kəsən nöqsanlar da aradan qaldırılmalıdır.

***Rövşən NURƏDDİNOĞLU***

---

# Nejdət Ünüvar: Parlament seçkiləri Azərbaycanda aparılan islahatlara ciddi töhfə verəcək



Azərbaycanda parlament seçkiləri demokratik şəraitdə keçiriləcək və ölkənin daha da inkişafına önəmli təkan verəcək. Bunu secki-2020.az saytına açıqlamasında TBMM-də Türkiyə-Azərbaycan parlamentlərarası dostluq qrupunun sabiq rəhbəri Nejdət Ünüvar deyib.

Hər bir seçkinin ölkənin güclənməsi baxımından olduqca vacib olduğunu vurğulayan Nejdət Ünüvar bildirib: "Azərbaycanda keçirilən hər seçki ölkəni həm iqtisadi, həm sosial, həm də siyasi baxımdan daha da gücləndirir. Bundan əlavə, hər seçki yenilənmə, xalqdan yenidən dəstək almaq deməkdir. Əminəm ki, bu seçkilər Azərbaycanda aparılan islahatlara ciddi töhfə verəcək". Azərbaycanın coğrafi baxımdan mühüm strateji məkanda yerləşdiyini qeyd edən N.Ünüvar ölkəmizin dünyanın enerji təchizatında önəmli aktorlardan biri olduğunu bildirib.

# Tamer Karadağ: "Bu seçkilər Azərbaycan parlamentinə yeni fikirli insanların gəlməsinə şərait yaradır"



Hər bir demokratik cəmiyyətdə olduğu kimi, Azərbaycanda da parlament seçkiləri ilə bağlı proseslər qanunauyğun şəkildə aparılır. Parlament seçkilərinin keçirilməsi ölkənin qanunverici orqanına yeni fikirli insanların gəlməsinə şərait yaradır.

Bu fikirləri AZƏRTAC-a açıqlamasında Azərbaycan Mədəniyyət Evi və Həmrəyliyi Dərnəyinin sədri Tamer Karadağ bildirib. O, parlamentin yenilənməsinin Azərbaycanın daha da inkişafı baxımından əhəmiyyətini qeyd edib. Azərbaycanın güclənməsinin Türkiyənin də güclənməsi demək olduğunu vurğulayan Tamer Karadağ bildirib: "Qardaş ölkələrimiz regionda mühüm siyasi və iqtisadi layihələrin reallaşmasında mühüm addımlar atıblar. Azərbaycan və Türkiyənin ortaq gücü regiona böyük iqtisadi və siyasi dividendlər qazandırır".

Dərnək rəhbəri əlavə edib ki, media və sosial şəbəkələr vasitəsilə aparılan müşahidələr parlament seçkilərində iştirak edən gənclərin sayının daha çox olduğunu göstərir. Onun sözlərinə görə, gənc nəslin seçkilərdə fəal iştirakı Azərbaycanda aparılan islahatların, gənclər siyasətinin uğurlu nəticəsidir.

Ölkəmizdə keçirilən parlament seçkilərinə beynəlxalq aləmdə də böyük maraq olduğunu deyən T.Karadağ qeyd edib ki, seçkiləri izləmək üçün gələn müxtəlif dövlətlərin və təşkilatların nümayəndələri təkcə seçki prosesini deyil, eyni zamanda, Azərbaycanda gedən islahatları izləmək imkanı qazanırlar. O bildirib ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə aparılan islahatlar Azərbaycanı inkişafa doğru dəyişir.

# Cari ildə manatın məzənnəsi necə olacaq?

Dünyanın əksər ölkələri iqtisadi böhranla üzləşdiyi halda, Azərbaycanda bunun əksi, dinamik artım və iqtisadi yüksəliş müşahidə olunur. Bir çox dünya ölkələrinin xarici ticarət dövriyyəsində mənfi saldo qeydə alınması fonunda isə ölkəmizin xarici ticarət dövriyyəsinin müsbət saldosu təqdirələyiqdir və bu fakt özü müsbət dinamikanın, iqtisadi tarazlığın və inkişafın təsdiqidir. Ötən ilin yekunlarına həsr olunan müşavirədə Prezident İlham Əliyevin də, qeyd etdiyi kimi, ölkəmizin xarici ticarət dövriyyəsinin müsbət saldosu 6 milyrad dollar təşkil edir ki, bu özü çox yüksək göstəricidir. Cənab Prezident ölkəmizin valyuta ehtiyatlarının 6,4 milyard dollar artdığını və rekord həddə, 51 milyard dollara çatdığını vurğulayıb. Etiraf etmək lazımdır ki, bu göstəricilər, daha dəqiq desək, istər xarici ticarət dövriyyəsində qeydə alınan müsbət saldo, istərsə də valyuta ehtiyatlarının rekord həddə çatması ölkə başçısının apardığı düşünülmüş, məqsədyönlü və uğurlu iqtisadi siyasətinin məntiqi nəticəsidir.



Xarici ticarət dövriyyəsində müşahidə olunan müsbət saldo həm manatın məzənnəsinin sabit vəziyyətdə saxlanmasına, həm də, bütövlükdə, makroiqtisadi vəziyyətin sabit olmasına xidmət göstərəcəyini cəsarətlə söyləmək olar. Belə uğurlu nəticələr və əldə olunan qənaətbəxş statistik göstəricilər nəticəyə hesablanan siyasət sayəsində reallaşıb və bu siyasətin davamının iqtisadi sabitliyi qoruyacağına zərrə qədər şübhə ola bilməz. Bu, həmçinin, ölkənin pul vahidinin məzənnəsinin də sabit qalacağını proqnozlaşdırmağa əsas verir.

Hesabat ilində Mərkəzi Bankın, Dövlət Neft Fondunun və Maliyyə Nazirliyinin öz ehtiyatlarını xeyli artırması heç də təsadüfi deyil. Bu nailiyyətləri də şərtləndirən dövlət başçısının müəyyənləşdirdiyi strategiya, aparılan islahatlar və yürüdülən düzgün və doğru iqtisadi siyasətdir. Məhz bu siyasətin sayəsində maliyyə resurslarının artdığının indi hamı şahididir və əldə olunan göstəricilər bunu əyani şəkildə təsdiq edir.

Adambaşına düşən valyuta ehtiyatlarına görə Azərbaycanın MDB məkanında birinci yerdə olması çox böyük nailiyyətdir. Ən azından, bu, ölkəmizin həmin məkanda hansı iqtisadi imkanlara malik olması və liderliyi deməkdir. Həmçinin, ölkəmizin valyuta ehtiyatlarının xarici borcu 5 dəfədən çox üstələməsi də sıradan bir göstərici deyil. Məhs bu göstərici bir çox məqamları özündə ehtiva edir və ən başlıcası, bu, o deməkdir ki, ölkəmizin xarici borcu onun valyuta ehtiyatlarının cəmi beşdən birini təşkil edir. Yəni ölkəmiz xarici borcdan istənilən anda və dərhal azad olmaq imkanına malikdir. Halbuki, dünyanın ən fövqəldövlətlərində, məsələn, ABŞ kimi bir nəhəng dövlətdə xarici borc valyuta ehtiyatlarından fantastik dərəcədə artıqdır və hətta bu ölkənin xarici borclanması ölkənin valyuta ehtiyatlarını bir növ kosmik sürətlə ötüməkdə və üstələməkdə davam edir.

"S&P Global Ratings" beynəlxalq reytinq agentliyi növbəti dörd ildə Azərbaycan manatı barədə nikbin proqnoz verib və agentliyin proqnozuna görə, növbəti dörd ildə Azərbaycan manatının məzənnəsi ABŞ dollarına nisbətdə stabil qalaraq, 1,7 səviyyəsində olacaq. Beynəlxalq reytinq agentliyi olan "S&P Global Ratings" bu proqnozu heç də təsadüfi olaraq verməyib və "S&P" hazırda manatın məzənnəsini dövri fiksasiya ilə çevik məzənnə rejimi kimi təsvir edir. Agentliyin gözləntilərinə görə, neftin hazırkı qiymətləri gözləniləndən aşağı ensə də, Azərbaycan Mərkəzi Bankı manatın məzənnəsini operativ şəkildə tənzimləyəcək. Dünya miqyasında nüfuzlu bir beynəlxalq reytinq agentliyinin belə bir proqnoz verməsi əlbəttə ki, əsassız deyil. Doğrudur, Azərbaycanın maliyyə sektorunda bir sıra həssaslıqlar qalıb, amma buna baxmayaraq, beynəlxalq reytinq agentliyi, sözsüz ki, hazırda bu sahədə müsbət meyilləri müşahidə edə bilir və ölkəmizin valyutası barədə agentliyin nikbin proqnoz verməsi də bundan irəli gəlir. Agentlik, əlbəttə ki, son 3 ildə aşağı inflyasiyanı, möhkəm və sabit məzənnəni, çox aşağı və konservativ azalan xarici borcu, möhkəmlənən xarici mövqelərimizi nəzərə alaraq, belə bir proqnoz verib. Çünki sadalanan məqamların ölkəmiz üçün əlverişli şərait yaratması nüfuzlu bir beynəlxalq reytinq agentliyinin diqqətindən yayına da bilməzdi.

Ötən ilin yekunlarına həsr olunan müşavirədə Mərkəzi Bankın rəhbəri Elman Rüstəmov cari ildə həm təmsil etdiyi qurumun, həm də Azərbaycan hökumətinin qarşısında duran olduqca mühüm vəzifələrə toxunarkən, cari ilin əsas vəzifəsinin təbii ki, yenə də inflyasiya olduğunu xatırladıb. Həm əhalinin gəlirlərinin formalaşmasında, həm manatın alıcılıq qabiliyyətinin qorunmasında, həm əhalinin aktivlərinin, yığımlarının dəyərsizləşməsinin qarşısının alınmasında bu məsələnin olduqca prinsipial olduğunu da Mərkəzi Bankın rəhbəri xatırladıb. E.Rüstəmov Mərkəzi Bankın proqnozunun dəyişmədiyini, inflyasiyanın 4 faiz ətrafında sabitləşdirilməsinin planlaşdırıldığını vurğulayıb və qeyd edib ki, həmin inflyasiya səviyyəsinə yenə də nail olmaq üçün bu istiqamətdə hökumətlə birlikdə sıx koordinasiyada işləri görüləcək. Mərkəzi Bank rəhbəri hökumətin rəsmi baza proqnozunda 55 dollarda belə tədiyə balansımızın bu il də müsbət olacağını vurğulayaraq, bildirib ki, bu il də valyuta ehtiyatlarını yığmağa imkan olacaq. O, qeyd edib ki, bir tərəfdən neftin faktiki qiymətinin daha da yüksək olması və valyuta vəsaitlərinin, valyuta gəlirlərinin səxələnməsi istiqamətində görülən tədbirlər daha tarazlı valyuta bazarına malik olmasına imkan verəcək.

Heç də təsadüfi deyil ki, Mərkəzi Bank rəhbəri Elman Rüstəmov bu il də manatın məzənnəsinin sabitliyinin qorunacağına ümid edir. Çünki bu ümidlər ötən hesabat ilinin müsbət göstəricilərindən doğur. Ölkə Prezidenti İlham Əliyevin ötən ilin yekunlarına həsr olunmuş müşavirədə dedikləri, eləcə də, Mərkəzi Bank rəhbərinin nikbin proqnozları ölkə vətəndaşının da ümidlərini, ələlxüsus, milli valyutamız olan manatın sabitliyinin qorunacağına olan ümidlərini daha da artırır.

***İnam HACIYEV***

# "Bu gün hər bir şey Azərbaycan vətəndaşları üçün edilir"



***"Bu gün Azərbaycan islahat aparan ölkədir. Azərbaycanda çox ciddi islahatlar həyata keçirilir". Bunu SİA-ya Yeni Azərbaycan Partiyasının (YAP) İcra Katibinin müavini, Milli Məclisin Komitə sədri Siyavuş Novruzov deyib.***

"Təkcə, 2019-cu ildə cənab Prezident sosial sahədə 9 paket qanun qəbul etdi, sosial sahəyə 3,5 milyard manat pul ayrıldı və bu da vətəndaşlarımızın sosial problemlərinin həllinə böyük kömək oldu. Qaçqınlar və məcburi köçkünlər üçün evlərin tikilməsi, şəhid ailələrinə verilən birdəfəlik müavinətlər, müharibə veteranlarının müavinətlərinin artırılması və daimliyi, pensiyaların, əməkhaqlarının minimum həddinin artması, tələbələrin təqaüdlərinin artırılması, şəhid ailələrinə, Qarabağ müharibəsi əlillərinə, Çernobıl əlillərinə, Əfqanıstan müharibəsi veteranlarına yeni evlərin tikilib verilməsi və s. digər bu qəbildən olan çox böyük məsələlər öz həllini Azərbaycanda tapdı. Bu il Azərbaycan müstəqillik tarixinin ən böyük dövlət büdcəsini qəbul edib. Həmin büdcəyə də daxil olan məsələlərdə ən böyük faiz məhz sosial sahəyə düşür. Biz deyə bilərik ki, Azərbaycan sosial dövlət olaraq əsasən vətəndaşlarımızın yaxşı yaşaması üçün addımlar atır. Necə ki, cənab Prezident fevralın 3-də "Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın icrasının birinci ilinin yekunlarına həsr olunan konfransda, Davos İqtisadi Forumunun hər birində qeyd edirdi ki, hər bir şey bu gün Azərbaycanda ölkə vətəndaşları üçün atılır", - deyə, Komitə sədri fikrini tamamlayıb.

# Politoloq: "Azərbaycan Prezidentinin siyasətinin xalq tərəfindən dəstəklənməsini şərtləndirən əsas amil görülən işlərdir"



Azərbaycan Prezidenti İlham Əliyev regionların 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramının icrasının birinci ilinin yekunlarına həsr olunmuş konfransda keçən il ölkəmizin bütövlükdə uğurla inkişaf etdiyini söylədi. Dövlətimizin başçısı Azərbaycanın inkişaf, sabitlik yolu ilə getdiyini və bu sabitliyin xalqın iradəsi ilə təmin edildiyini bildirdi. Bu gün dövlətimizin başçısının apardığı siyasət xalq tərəfindən dəstəklənir. Bu siyasətin təməlində konkret işlər, real inkişaf, əməl dayanır və verilən hər bir söz həyatda öz əksini tapır. Ona görə də xalq tərəfindən Azərbaycan hakimiyyətinə göstərilən etimad yüksək səviyyədədir. Bu fikirləri AZƏRTAC-a açıqlamasında politoloq Fuad Babayev bildirib. Politoloq deyib ki, möhkəm təməl üzərində bərqərar olan sabitliyin davamlılıq əmsalı da böyük olur. Məhz bu sabitlik keçən il ölkəmizə 13,5 milyard dollar sərmayə qoyulmasını şərtləndirən əsas amillərdəndir.

F.Babayev qeyd edib ki, Azərbaycan Prezidenti 16 il ərzində görülmüş işlərdən danışaraq Bakı-Tbilisi-Qars dəmir yolunun tikilməsini tarixi qələbə kimi səciyyələndirdi. Prezident bu yolun böyük gəlir gətirməklə yanaşı, həm də beynəlxalq əməkdaşlığı genişləndirdiyini vurğuladı. İndi bu yolla onu tikməyə başlayanda nəzərdə tutulmayan yerlərdən də yüklər daşınır. Yəni, bu yol beynəlxalq əməkdaşlıq üçün çox önəmli infrastruktur layihəsinə çevrilib və Azərbaycan burada aparıcı ölkədir.

# Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının bəyanatı



Azərbaycan Respublikasının Dağlıq Qarabağ bölgəsini və ətraf yeddi rayonu işğal edən Ermənistanın apardığı etnik təmizləmə siyasəti nəticəsində bir milyondan artıq azərbaycanlı qaçqın və məcburi köçkünə çevrilmişdir. Ermənistanın işğalı nəticəsində Azərbaycan Respublikasının vətəndaşları olan Dağlıq Qarabağ bölgəsinin erməni icması digər konstitusion hüquqları ilə yanaşı, seçki hüquqlarından da məhrum olmuşdur. Ermənistan bu ərazilərdə dəfələrlə saxta seçki şousu yaratmağa cəhd göstərmişdir. Azərbaycan ərazilərində seçkilərin keçirilməsinin əsasını Azərbaycan Konstitusiyası və Seçki Məcəlləsi təşkil etdiyi üçün bu "seçkilər" qeyri-legitimdir və beynəlxalq ictimaiyyət tərəfindən tanınmır.

Ermənistanın hərbi təcavüzü nəticəsində ölkə ərazisindəki 125 seçki dairəsindən 7-nin ərazisi tamamilə, 3 seçki dairəsi ərazisinin isə bir hissəsi işğal altındadır. Bununla yanaşı digər 4 seçki dairəsi ərazisində də məcburi köçkün məntəqələri mövcuddur. Doğma torpaqlarından zorla didərgin salınmış məcburi köçkün vətəndaşlarımızın Azərbaycan Respublikasının Milli Məclisinə 2020-ci il fevralın 9-na təyin edilmiş seçkilərdə öz konstitusion hüquqlarından istifadə edə bilmələri üçün 523 seçki məntəqəsi yaradılıb və respublika ərazisində fəaliyyət göstərən digər seçki məntəqələri kimi bu məntəqələr də seçki gününə tam hazır vəziyyətə gətirilib. Məcburi köçkün vətəndaşlarımızın respublikanın bütün regionlarına səpələnməsi onların səsvermənin təşkilini nə qədər çətinləşdirsə də, böyük zəhmət və gərgin iş sayəsində bu qəbildən olan vətəndaşlarımızın da səsvermə hüquqlarının tam təmin edilməsi üçün geniş şərait və hərtərəfli imkan yaradılıb.

İndiyə qədər ölkəmizdə keçirilən seçki və referendumlarda Ermənistanın təcavüzü nəticəsində öz doğma yurdlarından didərgin salınan Azərbaycan vətəndaşlarının seçki hüquqlarının təmin olunduğunu və milli mənsubiyyətinə görə vətəndaşlar arasında heç bir fərq qoyulmadığını diqqətə çatdıraraq, Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası bəyan edir ki, Azərbaycanın Dağlıq Qarabağ bölgəsinin erməni əsilli Azərbaycan vətəndaşları da digər vətəndaşlarımız kimi bu seçkilərdə öz səsvermə hüquqlarından azad və sərbəst şəkildə istifadə edə bilər və bunun üçün Azərbaycan Respublikası qanunvericiliyinin tələblərinə uyğun olaraq bütün addımların atılmasına hazırdır.

**Bakı şəhəri, 5 fevral 2020-ci il.**

# “DAHA GÜCLÜ AZƏRBAYCAN NAMİNƏ!”

*Yeni Azərbaycan Partiyası Milli Məclisə seçkilərlə əlaqədar təbliğat - təşviqat kampaniyasını uğurla davam etdirir*



## “Daha güclü Azərbaycan naminə” seçiciləri deputatlığa namizəd Məlahət İbrahimqızına səs verəcəklər





***Yeni Azərbaycan Partiyasının 21 saylı Nəsimi birinci Seçki Dairəsi üzrə deputatlığa namizədi Məlahət İbrahimqızı parlament seçkilərinin təbliğat-təşviqat kampaniyası çərçivəsində seçicilərlə növbəti görüşlərini 1-ci mikrorayon, A.Məhərrəmov-27 və M.Cəfərov-10 ünvanlarında keçirib.***

Görüşlərdə çıxış edən deputatlığa namizəd Məlahət İbrahimqızı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin həyata keçirdiyi inkişaf siyasəti, aparılan dərin məzmunlu islahatlar haqqında ətraflı məlumat verib. O qeyd edib ki, bu islahatlar ölkəmizin inkişafına böyük təkan verməklə yanaşı, insanların sosial rifahının daha da yüksəlməsinə xidmət edir. Deputatlığa namizədin sözlərinə görə, sosial-iqtisadi, məhkəmə-hüquq sistemində aparılan islahatlar ciddi nəticələr verməkdədir, vətəndaşlar islahatların nəticələrini öz həyatlarında hiss edirlər. M.İbrahimqızı söyləyib ki, ölkəmizin Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın fəaliyyətində də sosial məsələlərin həlli xüsusi yer tutur. Məlahət İbrahimqızı bildirib ki, ölkəmizdə bütün seçkilər azad və demokratik keçirilib. Bu dəfəki parlament seçkilərinin azad və şəffaf keçirilməsi üçün dövlət tərəfindən lazımi tədbirlər görülüb, namizədlər üçün bərabər şərait yaradılıb. Deputatlığa namizəd həmçinin, YAP-ın seçki proqramı haqqında seçicilərə ətraflı məlumat verib, daha güclü Azərbaycan naminə qarşıda duran vəzifələrdən bəhs edib.

Bakı şəhərində abadlıq və quruculuq işlərinin böyük vüsət aldığını deyən M.İbrahimqızı bu prosesin Nəsimi rayonunda da uğurla davam etdiyini diqqətə çatdırıb. Onun sözlərinə görə, Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla xanım Əliyevanın təşəbbüsü ilə Bakıda abadlıq işlərinin görülməsi, abad həyətlərin yaradılması insanlar tərəfindən böyük rəğbətlə qarşılanır.

M.İbrahimqızı bu uğurların davamlı olması üçün, daha güclü Azərbaycan naminə seçiciləri 9 fevral parlament seçkilərində Yeni Azərbaycan Partiyasının namizədlərinə səs verməyə çağırıb.

Görüşdə çıxış edən seçicilər Prezident İlham Əliyevin inkişaf siyasətini dəstəklədiklərini, 9 fevral parlament seçkilərində də YAP-ın namizədlərinə səs verəcəklərini bildiriblər.



## Cavid Osmanov Yenicə, Orta Ləki və Abad kənd seçicilərilə görüşüb



***Yeni Azərbaycan Partiyası tərəfindən namizədliyi irəli sürülən Cavid Osmanov təbliğat-təşviqat kampaniyası çərçivəsində növbəti görüşlərini Ağdaş rayonunun Yenicə, Orta Ləki və Abad kəndlərindən olan seçicilərlə keçirib. Seçicilər Cavid Osmanovu hədsiz coşqu və sürəkli alqışlarla qarşılayıblar. Görüşlərdə çıxış edən Yeni Azərbaycan Partiyasının namizədi Cavid Osmanov, ilk növbədə, görüş iştirakçılarına və bütün seçicilərinə öz minnətdarlığını bildirib. Eyni zamanda, Yeni Azərbaycan Partiyası tərəfindən yenidən ona göstərilən bu böyük etimadın tək ona deyil, bütün ağdaşlılara göstərildiyini qeyd edib. Cavid Osmanov seçicilərini əmin edib ki, ağdaşlıların dəstəyi ilə yenidən Milli Məclisə deputat seçilərsə, bu etimadı doğruldacaq, Ağdaş rayonunu bundan sonra da ölkə parlamentində layiqincə təmsil edəcək.***



Cavid Osmanov son 16 il ərzində Azərbaycanda görülən işlərdən və əldə olunan uğurlardan danışaraq bildirib ki, Azərbaycan bu gün möhtərəm Prezidentimiz İlham Əliyevin düşünülmüş və zamanın çağırışlarına uyğun məqsədyönlü siyasəti nəticəsində inkişaf yolunda inamla irəliləyir. Cavid Osmanov bütün bu işlərin ölkə başçısı İlham Əliyevin və Onunla çiyin-çiyinə birgə addımlayan Birinci vitse-prezidentimiz Mehriban xanım Əliyevanın həyata keçirdikləri yorulmaz fəaliyyətin bəhrəsi olduğunu bildirib. Ölkənin bütün bölgələrində olduğu kimi, Ağdaş rayonunda da geniş vüsət alan abadlıq-quruculuq işlərinə toxunan Cavid Osmanov Yeni Azərbaycan Partiyasının Sədri, ölkə başçısı İlham Əliyevin Ağdaş rayonuna olan xüsusi diqqət və qayğısından da danışıb.

Hər üç görüşdə təbliğat qrupunun üzvləri Sevgili İbrahimova, İsmayıl Xuduyev çıxış edərək, 3 il ərzində Cavid Osmanovun Milli Məclisdəki fəaliyyəti haqqında ətraflı məlumat veriblər. Onlar seçiciləri seçki günü fəal olmağa, birlik nümayiş etdirərək yekdilliklə Yeni Azərbaycan Partiyasının namizədi Cavid Osmanova səs verməyə çağırıblar.

Görüşlərdə çıxış edən seçicilər Cavid Osmanovun namizədliyinin Yeni Azərbaycan Partiyası tərəfindən yenidən irəli sürülməsini sevinclə qarşıladıqlarını, bunu təkcə bu kəndlərdə yaşayan əhali üçün deyil, eləcə də, bütün ağdaşlılar üçün böyük şərəf olduğunu və seçki günü Cavid Osmanova səs verəcəklərini bildiriblər

**ZÜMRÜD BAYRAMOVA**

# “DAHA GÜCLÜ AZƏRBAYCAN NAMİNƏ!”

*Yeni Azərbaycan Partiyası Milli Məclisə seçkilərlə əlaqədar təbliğat - təşviqat kampaniyasını uğurla davam etdirir*

***Yeni Azərbaycan Partiyasının 19 saylı Nərimanov birinci Seçki Dairəsindən deputatlığa namizədi Hikmət Babaoğlu Nərimanov rayonunun seçiciləri ilə növbəti görüşünü keçirib. Görüşü açan YAP Nərimanov rayon təşkilatının sədri Təmraz Tağıyev partiyamızın qarşıdan gələn parlament seçkilərində qələbə qazanacağına əmin olduğunu bildirib. T.Tağıyev vurğulayıb ki, partiyamız parlament seçkilərinə böyük inamla gedir. O, 19 saylı Nərimanov birinci Seçki Dairəsindən partiyanın deputatlığa namizədinin növbəti dəfə Hikmət Babaoğlu olduğunu söyləyib. T.Tağıyev, YAP-ın deputatlığa namizədi Hikmət Babaoğlunun tərcümeyi-halı, əmək və elmi-siyasi fəaliyyəti haqqında geniş məlumat verib. Görüşdə çıxış edən Respublika Veteranlar Təşkilatının sədr müavini Cəlil Xəlilov seçicilərin hər zaman YAP-ın namizədini dəstəklədiyini bildirib.***



## Deputatlığa namizəd Hikmət Babaoğlu Nərimanov rayonunun seçiciləri ilə növbəti görüşünü keçirib

O, YAP-ın namizədi Hikmət Babaoğlunun fəaliyyəti ilə yaxından tanış olduğunu deyərək, onun millət vəkili, politoloq, həmçinin elm adamı kimi fəaliyyətini yüksək qiymətləndirib: “Veteranların seçimi də YAP-ın namizədi olacaq. Biz inanırıq ki, Hikmət Babaoğlu da bundan sonra da seçiciləri layiqincə təmsil edəcək, ictimai-siyasi proseslərdə fəal iştirak edəcək. Çünki o, Ulu Öndər





Heydər Əliyevin qurucusu olduğu partiyanı təmsil edir. Veteranlar olaraq ona seçkilərdə xeyir-dua veririk”. Professor Vilayət Əliyev də çıxışında YAP-ın ölkəmizin ən güclü siyasi qüvvəsi olduğunu bildirib. Nərimanov rayonunda böyük quruculuq işlərinin aparıldığını deyən V.Əliyevin fikrincə, millət vəkillərinin də bu prosesdə payı var: “Hesab edirəm ki, 19 saylı Seçki Dairəsindən ən uğurlu namizəd Hikmət Babaoğludur. Biz seçkilərdə YAP-ın namizədi olan Hikmət Babaoğluna uğurlar arzulayırıq. Ağsaqqalların xeyirduasını alan hər işdə qalib gəlir və Hikmət müəllimin də seçkilərdə qalib gələcəyinə inanırıq”.

Görüşdə həmçinin, YAP Siyasi Şurasının üzvü, “İki sahil” qəzetinin baş redaktoru Vüqar Rəhimzadə, “Səs” qəzetinin baş redaktoru Bəhruz Quliyev, Azərbaycan Gözdən Əlillər Cəmiyyətinin sədri Cəmyar Abdullayev çıxış edərək deputatlığa namizəd Hikmət Babaoğlunun fəaliyyəti haqqında fikirlərini bildirib, onun fəaliyyətini yüksək dəyərləndiriblər. Qeyd edilib ki, Hikmət Babaoğlu dövlətçiliyə sadiq, vətənpərvər insandır, Prezident İlham Əliyevinin siyasətinin fəal təbliğatçısıdır. Natiqlər Nərimanov rayon seçicilərini fevralın 9-da keçiriləcək parlament seçkilərində YAP-ın namizədi Hikmət Babaoğluna səs verməyə çağırıblar. Çıxış edənlər seçicilərin YAP-ın namizədinə səs verəcəyinə və öz növbəsində Hikmət Babaoğlunun da seçicilərin etimadını doğruldacağına əminliyini ifadə ediblər.



Görüşdə 19 saylı Nərimanov birinci Seçki Dairəsindən YAP tərəfindən namizədliyi irəli sürülmüş Hikmət Babaoğlu çıxış edərək görüş iştirakçılarını salamlayıb. Məhz Ulu Öndər Heydər Əliyevin qurucusu olduğu YAP-ın üzvü olaraq seçkilərdə namizəd kimi iştirak etdiyi üçün fəxr hissi keçirdiyini bildirən Hikmət Babaoğlu deyib ki, partiya yarandığı vaxtdan bu günədək azərbaycançılıq ideologiyası və müstəqillik prinsipi ilə böyük uğurlar əldə edib. Onun sözlərinə görə, bu yol bundan sonra da eyni ideologiya və prinsip əsasında yeni hədəflərə doğru davam etməkdədir: “Mənim üçün həm şərəf, həm də məsuliyyətdir ki, Yeni Azərbaycan Partiyası tərəfindən namizədliyim irəli sürülüb. Mən bu etimadı doğruldacağıma, sizlərin verəcəyiniz səslərə layiq olacağıma söz verirəm və əminəm ki, bundan sonrakı dövrdə də birlikdə böyük nailiyyətlər əldə edəcəyik. Ona görə ki, Yeni Azərbaycan Partiyasının namizədinin arxasında nəhəng siyasi güc və 750 minə yaxın insanın siyasi iradəsi dayanıb”. YAP-ın seçkilərə “Daha güclü Azərbaycan naminə!!” şüarı ilə getdiyini deyən deputatlığa namizəd qeyd edib ki, bu, bir növ xalq qarşısında hesabatdır. Onun fikrincə, bu, o deməkdir ki, Azərbaycan öz hədəflərinin, məqsədlərinin bir hissəsinə çatıb. Hazırda isə Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmiz inkişafın yeni mərhələsindədir və qarşıda dövlətimizin daha da gücləndirilməsi vəzifəsi dayanır. Hikmət Babaoğlu Azərbaycanın qarşıya qoyduğu bu hədəfə çatacağına da əminliyini bildirib.

Millət vəkili kimi seçicilərin müraciətlərinin həlli ilə bağlı gördüyü işlər haqda məlumat verən Hikmət Babaoğlu həmçinin siyasi, elmi fəaliyyəti, nəşr etdirdiyi əsərlər barədə də görüş iştirakçılarına ətraflı məlumat verib.

Görüşdə 9 fevral parlament seçkilərində YAP-ın namizədlərinin qalib gələcəyinə əminlik ifadə olunub.

***RƏFİQƏ KAMALQIZI***

# “DAHA GÜCLÜ AZƏRBAYCAN NAMİNƏ!”

*Yeni Azərbaycan Partiyası Milli Məclisə seçkilərlə əlaqədar təbliğat - təşviqat kampaniyasını uğurla davam etdirir*



## Malik Həsənov cəlilabadlıların real seçimidir





***Fevralın 9-da keçiriləcək parlament seçkiləri ilə bağlı Yeni Azərbaycan Partiyası tərəfindən 67 saylı Cəlilabad rayon Seçki Dairəsindən namizədliyi irəli sürülən Malik Həsənovun rayon təşkilatının qərargahında seçicilərlə növbəti görüşü keçirilib.***

Görüşdə çıxış edən YAP Cəlilabad şəhər təşkilatının sədri Mirsüleyman Mirxaslı parlament seçkiləri ilə bağlı məlumat verərək bildirib ki, hər dəfə yeni layihələrlə seçkilərə qatılan YAP bu seçkilərə də “Daha güclü Azərbaycan naminə” şüarı ilə gedir: “YAP hər zaman dövlətçilik maraqlarının müdafiəsində ön sıralarda yer alıb. Əminik ki, hər zaman Ulu Öndər Heydər Əliyev siyasi kursuna sadiqlik nümayiş etdirən Cəlilabad seçiciləri bu seçkilərdə də YAP tərəfindən irəli sürülən namizədləri dəstəkləyəcək”.

Seçicilər qarşısında çıxış edən YAP-ın namizədi Malik Həsənov bildirib ki, Azərbaycanın bugünkü dinamik sosial-iqtisadi inkişafı ölkəmizin yaxın gələcəkdə bütün sahələrdə dünyanın qabaqcıl ölkələrindən birinə çevriləcəyini deməyə əsas verir: “Əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulan bu uğurlar Prezident İlham Əliyevin rəhbərliyi ilə gələcək illərdə də davam edəcək. Bu gün Azərbaycanda mühüm islahatlar aparılır. Bu islahatlar bütün vətəndaşların sosial rifahının yüksəldilməsinə xidmət göstərir. Bu işdə Prezidentimizin ən yaxın dəstəkçisi məhz Yeni Azərbaycan Partiyasıdır. Mən əminəm ki, seçicilərimiz düzgün seçim edəcək və YAP-ın namizədlərinə səs verəcəklər”.

***RƏFİQƏ HÜSEYNOVA***

## Məşhur Məmmədovun seçicilərlə görüşləri davam edir







**9 fevral parlament seçkiləri ilə əlaqədar təbliğat-təşviqat kampaniyası çərçivəsində 70 saylı Masallı rayon Seçki Dairəsindən Yeni Azərbaycan Partiyasının deputatlığa namizədi Məşhur Məmmədovun rayon təşkilatının qərargahında “Daha güclü Azərbaycan naminə!” devizi altında təşkilatın ərazi ilk partiya təşkilatlarının sədrləri ilə görüşü keçirilib.**

Görüşdə çıxış edən YAP Masallı rayon təşkilatının sədri Seyfəddin Əliyev rayonda seçicilərin təbliğat-təşviqat tədbirləri və namizədlərin seçkiqabağı görüşlərinin seçicilərin mütəşəkkilliyi və fəallığı şəraitində keçdiyini bildirib. Həmçinin, Yeni Azərbaycan Partiyasının 70 saylı Masallı rayon Seçki Dairəsindən deputatlığa namizəd Məşhur Məmmədov haqqında seçicilərə ətraflı məlumat verərək, 9 fevralda keçirilən seçkilərdə ona səs verməyə çağırıb.

Görüş zamanı deputatlığa namizəd Məşhur Məmmədov Azərbaycanda həyata keçirilən uğurlu sosial siyasətin mahiyyətindən bəhs edib, dövlət siyasətinin mərkəzində ölkə vətəndaşlarının rifahı və mənafeyinin dayandığını bildirilib. Həmçinin, bu günlərdə Azərbaycan Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevin dördüncü - “Regionların sosial-iqtisadi inkişafına dair Dövlət Proqramı”nın bir illiyi ilə bağlı keçirilən müşavirədə çox mühüm məsələlərə toxunduğunu vurğulayıb: “Həyata keçirilən dövlət proqramları çərçivəsində respublikamızın bütün regionlarında olduğu kimi, Masallı rayonunda da böyük abadlıq və quruculuq işləri həyata keçirilir, inkişaf edir. Təbii ki, bütün bunlar əhalinin rifahının yüksəlməsində mühüm rol oynayır”.

Məşhur Məmmədov seçicilərə minnətdarlıq ifadə edərək, bildirib ki, əgər seçiləcəmsə hər birinizin problemini öz şəxsi vətəndaş problemim kimi qəbul edəcək, hər bir seçiciyə fərdi yanaşacaq, imkan daxilində həmin problemlərin həllinə yardımçı olacağam. Həmçinin, 9 fevralda keçiriləcək seçkilərdə seçiciləri fəal olmağa çağırıb.

Görüşlərdə çıxış edən seçicilər seçki günü YAP-ın namizədinə səs verəcəklərini bildiriblər.

***RƏFİQƏ KAMALQIZI***

# “DAHA GÜCLÜ AZƏRBAYCAN NAMİNƏ!”

*Yeni Azərbaycan Partiyası Milli Məclisə seçkilərlə əlaqədar təbliğat - təşviqat kampaniyasını uğurla davam etdirir*

## Ziyafət Əsgərovun Astara seçiciləri ilə görüşləri davam edir





76 saylı Lənkəran-Astara Seçki Dairəsindən deputatlığa namizəd Ziyafət Əsgərov Astara rayon Təngərüd kəndində seçicilərlə görüş keçirib. Görüşdə çıxış edən YAP-nın namizədi Ziyafət Əsgərov bildirib ki, Azərbaycanın bugünkü dinamik sosial-iqtisadi inkişafı ölkəmizin yaxın gələcəkdə bütün sahələrdə dünyanın qabaqcıl ölkələrindən birinə çevriləcəyini deməyə əsas verir. Əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulan bu uğurlar Prezident İlham Əliyevin rəhbərliyi ilə gələcək illərdə də davam edəcək: “Bu gün Azərbaycanda mühüm islahatlar aparılır. Bu islahatlar bütün vətəndaşların sosial rifahının yüksəldilməsinə xidmət göstərir. Bu işdə Prezidentimizin ən yaxın dəstəkçisi məhz Yeni Azərbaycan Partiyasıdır. Mən əminəm ki, seçicilərimiz düzgün seçim edəcək və YAP-ın namizədlərinə səs verəcəklər”.

## Sevinc Fətəliyevanın seçicilərlə növbəti görüşü keçirilib




30 saylı Suraxanı birinci Seçki Dairəsindən Yeni Azərbaycan Partiyasının deputatlığa namizədi Sevinc Fətəliyevanın seçicilərlə fərdi evlərdə görüşü keçirilib.

Görüş əsnasında S.Fətəliyeva ailələrin məişət problemlərini dinləyib, problemlərin qısa zamanda həlli üçün aidiyyatı qurumlara məlumat verəcəyini bildirib. Seçicilər Sevinc Fətəliyevanın Milli Məclisin deputatı olduğu illərdəki fəaliyyətini müsbət dəyərləndirdiklərini, onu yenidən millət vəkili olaraq görmək istədiklərini söyləyiblər.



Gün ərzində silsilə görüşlərin yekunu olaraq İran İslam Respublikasının Təbriz şəhərində keçirilən Karate üzrə Master Caup Beynəlxalq Turnirində qalibiyyət əldə etmiş Hövsan Olimpiya İdman Kompleksinin idmançıları və onların valideynlərinin iştirakı ilə görüş keçirilib.

Sevinc Fətəliyeva Azərbaycan Bayrağını zirvələrdə dalğalandırmış idmançıları və onların məşqçilərini qalibiyyət münasibəti ilə təbrik edib, növbəti yarışlarda da uğurlar arzulayıb.

İdmançılardan Ələkbər Zeynallı, Umud Nurməmmədli, Elton Əliyev, Həsən Əhmədov, Cansu Əhmədzadə, Aysun Bodurova, Şükufə Nurməmmədli, Uğur Vəlizadə, Ayxan Osmanov, Əli Hacıyev, Natiq Cəfərov, Vildan Hüseynova, Amil Xəlilov, Aysun Bodurova və Əli Hacıyevə hər zaman zirvələri fəth etmələrini arzulayıb.

Görüşdə iştirak edən valideynlər də öz növbələrində Sevinc xanıma təşkil etdiyi görüş üçün minnətdarlıq bildirib, bu görüşün uşaqlarda böyük motivasiya yaradacağını söyləyiblər. Onlar 9 ferval tarixində keçiriləcək parlament seçkilərində seçimlərinin Sevinc Fətəliyeva olacağını qeyd ediblər.

## Kamilə Əliyevanın seçicilərlə görüşləri davam edir





111 saylı Zaqatala-Balakən Seçki Dairəsindən Yeni Azərbaycan Partiyasının deputatlığa namizədi Kamilə Əliyevanın təbliğat-təşviqat kampaniyası çərçivəsində seçicilərlə görüşləri davam edir.

Kamilə Əliyevanın Zaqatala rayonun Fındıqlı, Maqov, Paşan sakinləri ilə görüşləri olub. Görüşdə çıxış edən deputatlığa namizəd Kamilə Əliyeva Prezident İlham Əliyevin həyata keçirdiyi məqsədyönlü, prinsipial, milli maraqlara əsaslanan siyasəti nəticəsində ölkəmizin dinamik inkişaf yolunda inamla irəlilədiyini bildirərək, Azərbaycanın güclü və yüksək beynəlxalq nüfuza malik dövlətə çevrildiyini diqqətə çatdırıb. Dövlət başçısının rəhbərliyi ilə həyata keçirilən müasir dövrün tələbinə uyğun siyasi islahatlar, icra edilən iqtisadi proqram və sərəncamlar ölkəmizin nüfuzunun



sərhədlərini genişləndirməklə bərabər, insan amilinin də inkişafına güclü təkan verib.

Deputatlığa namizəd Kamilə Əliyeva çıxışı zamanı deputat olduğu dönəmdə göstərdiyi fəaliyyətindən, aparılan dövlət siyasətindən söz açıb.

Görüşdə seçicilər millət vəkilliyinə namizəd Kamilə xanım Əliyevaya 9 fevral parlament seçkilərində və gələcək fəaliyyətində uğurlar arzulayıblar.

**ZÜMRÜD BAYRAMOVA**
**R.HÜSEYNOVA**

## ABŞ yəhudiləri: Azərbaycanın multikultural ənənələrin qorunmasına yönəlmiş siyasəti təqdirəlayiqdir



Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) sədri Mübariz Qurbanlı fevralın 5-də yəhudilərdən ibarət ABŞ nümayəndə heyətinin üzvləri ilə görüşüb. Komitədən AZƏRTAC-a bildiriblər ki, qonaqları salamlayan DQİDK sədri bildirib ki, Azərbaycan dünyəvi dövlət olmasına baxmayaraq, din hər zaman dövlətin xüsusi diqqət yetirdiyi sahələrdən biridir.

Mübariz Qurbanlı bildirib ki, ölkəmizdə insanların dini etiqad azadlığının təmin olunması, qorunması üçün hüquqi baza var və hər bir vətəndaşın etiqad azadlığı dövlətin təminatı altındadır. Azərbaycanda multikultural və tolerant mühitin dərin tarixi köklərə malik olduğunu diqqətə çatdıran Komitə sədri yəhudilərin Azərbaycanda məskunlaşma tarixi və yəhudi icmalarının ölkəmizdəki fəaliyyətindən danışıb. Qeyd edib ki, dövlət tərəfindən qeydiyyata alınan qeyri-İslam dini qurumlarından 8-i yəhudi dini icmasıdır, eyni zamanda, ölkəmizdə 7 sinaqoq və bir sıra yəhudi məktəbləri fəaliyyət göstərir. Konfessiyalar hər zaman dövlətin diqqət və qayğısı ilə əhatə olunur, məscidlərlə yanaşı, kilsələr və sinaqoqlar da dövlət tərəfindən təmir və bərpa edilir, yeniləri inşa olunur. Dini konfessiyaların fəaliyyətlərinin dəstəklənməsi məqsədilə dövlətimizin başçısı tərəfindən hər il maliyyə vəsaiti ayrılır.

Qonaqlara Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi, Ermənistanın ölkəmizin işğal olunmuş ərazilərində maddi-mədəni, dini irsin talan və məhv edilməsi siyasəti haqqında da ətraflı məlumat verilib.

Görüş və əhatəli məlumat üçün təşəkkürlərini bildirən qonaqlar Azərbaycanın həmişə müxtəlif konfessiyaların, xalqların birgə yaşadığı, tolerantlığın yüksək səviyyədə qorunduğu ölkələr sırasında olmasını yüksək qiymətləndiriblər. Ölkəmizin multikulturalizm ənənələrinin qorunmasına yönəlmiş çoxşaxəli siyasətinin təqdirəlayiq hal olduğunu vurğulayıblar. Sonda Komitə sədri qonaqların suallarını cavablandırıb. Qeyd edək ki, nümayəndə heyətinə San-Dieqo Universitetinin professoru Martin Kruminq, Yəhudi Respublikaçılar Alyansının təsisçisi Miç Silberman, “Newsblaze” portalının müxbiri Nurit Qrinqer, jurnalistlər Leon Veynşteyn və Raul Kontreras daxildirlər.

# "DAHA GÜCLÜ AZƏRBAYCAN NAMİNƏ!"

*Yeni Azərbaycan Partiyası Milli Məclisə seçkilərlə əlaqədar təbliğat - təşviqat kampaniyasını uğurla davam etdirir*





## Binəqədi seçiciləri "Daha güclü Azərbaycan naminə" Kamaləddin Qafarova səs verəcəklər



***Fevralın 9-da ölkəmizdə keçiriləcək Milli Məclisə seçkilərdə Yeni Azərbaycan Partiyası tərəfindən namizədliyi 9 saylı Binəqədi ikinci Seçki Dairəsindən irəli sürülmüş Kamaləddin Qafarovun Binəqədi rayonunun Xutor qəsəbə sakinləri ilə görüşü keçirilib.***

Görüşü giriş sözü ilə açan Yeni Azərbaycan Partiyası Mərkəzi Seçki Qərargahının Binəqədi rayon şöbəsinin sədri Ramiz Göyüşov son 16 ildə Azərbaycanda Prezident İlham Əliyevin siyasi iradəsi əsasında ölkənin inkişafının ardıcıllığını təmin etmək, milli iqtisadiyyatın rəqabətqabiliyyətliliyini gücləndirmək məqsədilə iqtisadi islahatlar həyata keçirildiyini bildirib. Aparılan islahatlar indiki şəraitdə Azərbaycanın qarşısında yeni inkişaf perspektivləri açan fundamental faktorlar qismində çıxış edir. R.Göyüşov seçkilərin demokratiyanın atributlarından biri olduğunu bildirərək, hər bir vətəndaşın seçki hüququndan istifadə etməli olduğunu qeyd edib. Bildirib ki, ölkəmizdə azad və demokratik seçki mühiti formalaşıb. Daha sonra R.Göyüşov deputatlığa namizəd Kaməddin Qafarovun Milli Məclisdəki fəaliyyətinə nəzər salıb. Seçki günü seçiciləri fəal olmağa və "Daha güclü Azərbaycan naminə" Yeni Azərbaycan Partiyasının namizədi Kamaləddin Qafarova səs verməyə çağırıb.

Görüşdə çıxış edən deputatlığa namizəd Kamaləddin Qafarov Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən həyata keçirilən daxili və xarici siyasət, genişmiqyaslı islahatların uğurlu nəticələri haqqında seçicilərə geniş məlumat verib. Qeyd edib ki, bu siyasətin mərkəzində Azərbaycan vətəndaşı və onun sosial rifahı dayanır: "Xalq, birmənalı olaraq, Prezident İlham Əliyevin həm daxili, həm də xarici siyasətini müdafiə edir. Dövlət başçısı da yalnız milli maraqlara söykənən müstəqil siyasət həyata keçirir. Partiyanın Sədri İlham Əliyevin rəhbərliyi ilə ölkədə aparılan siyasət, islahatlar onu göstərir ki, Azərbaycanda bundan sonra da uzun müddətli, dayanıqlı inkişaf təmin olunacaq. Məhz bunun üçün partiyanın hər bir üzvü dövlətə və xalqa xidməti fəaliyyətinin əsasında saxlayan, Azərbaycanın davamlı uğurlarına böyük töhfələr verən, sözlə əməl birliyinin nəticəsi olaraq cəmiyyətdə nüfuzunu günbəgün artıran partiyada təmsil olunmağı ilə qürur duyur". Deputatlığa namizəd onu da bildirib ki, 9 fevral parlament seçkilərinə sayılı günlər qalır. Təbliğat-təşviqat kampaniyası çərçivəsində seçicilərlə 30-a yaxın görüş keçirib və onlardan əksəriyyəti fərdi görüşlər olub. Keçirilən görüşlərdə sakinlərin problemləri ilə yaxından tanış olub, yenidən seçicilərin etimadını qazanacağı təqdirdə onların problemlərinin həllinə çalışacağına söz verib.

Görüşdə çıxış edən seçicilərdən Məleykə Qurbanova, Səməngül Əhmədova, Balamirzə Abdullayev və başqaları "Daha güclü Azərbaycan naminə" fevralın 9-da Prezident İlham Əliyevin rəhbərlik etdiyi Yeni Azərbaycan Partiyasının namizədinə - Kamaləddin Qafarova səs verəcəklərini bildirdilər.

**_Zümrüd BAYRAMOVA_**

## Qaradağda Aydın Hüseynovun namizədliyi yekdilliklə dəstəklənəcək





***Yeni Azərbaycan Partiyası tərəfindən deputatlığa namizədliyi 11 saylı Qaradağ Seçki Dairəsindən irəli sürülən Aydın Hüseynov seçicilərlə növbəti görüşünü Qızıldaş qəsəbəsində keçirib.***

Təmsil olduğu partiyanın müstəqil respublikamızın inkişafında, əhalinin rifah halının yaxşılaşdırılmasında, ölkəmizin dünya birliyində rolunun genişlənməsində və digər məsələlərin həllində müstəsna xidmətlərinə toxunan YAP Qaradağ rayon təşkilatının sədri Aydın Hüseynov fikrini konkret faktlarla əsaslandırıb. Qeyd edib ki, Azərbaycan bir dövlət kimi parçalanmaq təhlükəsi ilə qarşılaşanda xalqımızın yekdil çağırışı ilə hakimiyyətə gələn partiyamızın Sədri, Ümummilli Lider Heydər Əliyevin müdrik siyasəti və qətiyyətli rəhbərliyi sayəsində ölkəmiz yeni bir inkişaf dövrünə qədəm qoydu: "Bu uğurlu işlərin Respublika Prezidenti İlham Əliyev tərəfindən davam etdirilməsi nəticəsində Azərbaycan nəinki regionda, o cümlədən dünya birliyində də rolunu durmadan genişləndirir. Beynəlxalq təşkilatlar tərəfindən aparılan araşdırmalar bir daha təsdiqləyir ki, ölkəmiz bütün sahələr üzrə inkişaf etməkdə olan ölkələrdən birinə çevrilib".

Qeyd olunub ki, partiyamız qazandığı bu uğurları daha da inkişaf etdirmək üçün fəaliyyətini durmadan genişləndirir. Bu səbəbdən də iqtidar partiyası olaraq xalqın azad seçiminə tam şərait yaradılıb və seçkilərin azad və ədalətli keçirilməsinə nail olub. Çünki hər bir ölkənin inkişafı xalqın sərbəst seçimindən asılıdır. Bununla yanaşı növbəti seçkilərdə də seçicilərin yekdil səsini qazanmaq üçün daha güclü Azərbaycan naminə devizi ilə seçkilərə qatılıb və seçicilərə müraciət edib: Azərbaycanın gələcəyinə səs ver!

Görüşdə çıxış edən seçicilər Yeni Azərbaycan Partiyasının cəmiyyətimizdə rolunu və Qaradağ rayonundan Milli Məclisin V çağırış deputatı seçilmiş Aydın Hüseynovun deputatlıq fəaliyyətini yüksək dəyərləndirdiklərinə görə növbəti seçkidə də partiyanın namizədinə səs verəcəklərini bildiriblər.

**_RƏFİQƏ HÜSEYNOVA_**

# “DAHA GÜCLÜ AZƏRBAYCAN NAMİNƏ!”

## *Yeni Azərbaycan Partiyası Milli Məclisə seçkilərlə əlaqədar təbliğat - təşviqat kampaniyasını uğurla davam etdirir*

### SƏBAİL



VI çağırış Milli Məclis seçkilərində 29 saylı Səbail Seçki Dairəsindən Yeni Azərbaycan Partiyasının deputatlığa namizədi Aytən Hüseynova təbliğat-təşviqat kampaniyası çərçivəsində qadın seçicilərlə görüşüb.

Görüşdə YAP Səbail rayon təşkilatının sədri prof. Şəmsəddin Hacıyev çıxış edərək qadınların respublikamızın ictimai-siyasi həyatında, cəmiyyətimizin yeni keyfiyyət mərhələsindəki inkişafında, eləcə də Cənubi Qafqazın siyasi avanqardı və nüfuzlu, mütəşəkkil siyasi qüvvəsi olan Yeni Azərbaycan Partiyasının sıralarında rolundan geniş bəhs edərək, ölkəmizdə dövlət-qadın siyasətinin uğurla həyata keçirilməsi, qadınların respublikamızda, eləcə də Səbail rayonunda gedən ictimai, siyasi, iqtisadi, mədəni proseslərdə fəal iştirakı və idarəetmə orqanlarında, seçki proseslərindəki təmsilçiliyi haqqında danışıb. Bildirib ki, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Yeni Azərbaycan Partiyasının Sədr müavini, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın humanizm, xeyriyyəçilik kimi bəşəri prinsiplərə söykənən və ən həssas, xüsusi diqqət tələb edən sahələrdəki çoxşaxəli fəaliyyəti bütün dünyada Azərbaycan qadınının müsbət obrazını formalaşdırmışdır.

Ş.Hacıyev hər kəsi seçki günü fəal olmağa və parlament seçkilərinə “Daha güclü Azərbaycan naminə” şüarı ilə gedən Yeni Azərbaycan Partiyasının namizədini dəstəkləməyə çağırıb. Həmçinin, YAP-ın deputatlığa namizədi Aytən Hüseynovan haqqında məlumat verib.

YAP-ın 29 saylı Səbail Seçki Dairəsindən parlament seçkilərinə namizədi A.Hüseynova görüşdə çıxış edərək, ictimai-siyasi fəaliyyəti, seçki platforması, eləcə də 17 yanvar tarixindən etibarən Səbail rayonunda apardığı təbliğat-təşviqat kampaniyası haqqında danışıb. Bildirib ki, ölkəmizdə aparılan düşünülmüş siyasət nəticəsində bu gün Azərbaycan qadınının, gəncinin həm cəmiyyətdə, həm də mötəbər idarəçilik strukturlarında layiqincə təmsil olunmaları üçün hər cürə imkan və şərait yaradılmışdır. O, Səbail qadınlarını seçkilərdə ailə üzvləri ilə birlikdə fəal iştirak etməyə və siyasi mövqelərini nümayiş etdirərək Yeni Azərbaycan Partiyasının siyasətini dəstəkləməyə çağırıb.

Görüşdə YAP Səbail rayon təşkilatının qadınlar şurasının sədri Təranə Kərimova, YAP Səbail rayon idarə heyətinin üzvü Zenfira Məmmədova, rayon qadınlar şurasının üzvü Tinatin Əliyeva, fəal qadınlardan Pərvanə Əzimova, Könül Əfəndiyeva, Xədicə Həsənova və Aytəkin Hüseynbəyli 9 fevral parlament seçkilərində Yeni Azərbaycan Partiyasının namizədini dəstəkləyəcəklərini bildiriblər.

### QUSAR

51 saylı Qusar Seçki Dairəsi üzrə Yeni Azərbaycan Partiyasının namizədi Azər Badamovun növbəti görüşləri rayonun Hil kənd seçiciləri və rayon səhiyyə işçiləri ilə olub.

Görüşləri YAP Qusar rayon təşkilatının sədri David İbramxəlilov açaraq, Azərbaycan Prezidenti İlham Əliyevin həyata keçirdiyi inkişaf siyasəti, aparılan dərin məzmunlu islahatlar haqqında ətraflı məlumat verib. Rayon təşkilat sədri bildirib ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmiz sosial-iqtisadi inkişaf parametrlərinə görə, dünyada analoqu olmayan uğurlara imza atıb. Dövlət başçısının siyasi iradəsi əsasında Azərbaycanda bütün sahələrdə sistemli, kompleks xarakterli, fundamental islahatlar həyata keçirilir. O, əldə etdiyimiz nailiyyətlərin davamlı olması üçün, “Daha güclü Azərbaycan naminə” seçiciləri 9 fevral parlament seçkilərində Yeni Azərbaycan Partiyasının namizədi Azər Badamova səs verməyə çağırıb.

Görüşdə deputatlığa namizəd Azər Badamov çıxış edərək seçicilərə özü haqqında məlumat verib və seçiciləri fəal



olmağa, YAP-ın namizədinə səs verməyə çağırıb.

Görüşlərdə iştirak edən seçicilərdən Amik Həsənəliyev, Bəylər Ələsgərov, Ramiddin Əliyarov, Sədəf Orucəliyeva və Gülya Uluxanova çıxış edərək Yeni Azərbaycan Partiyasının siyasi xəttini dəstəklədiklərini və deputatlığa namizəd Azər Badamova yekdilliklə səs verəcəklərini bildiriblər.

### OĞUZ



Fevralın 4-də, günün ikinci yarısında 117 saylı Oğuz-Qəbələ Seçki Dairəsindən YAP-ın deputatlığa namizədi Aqiyə Naxçıvanlı Oğuz rayon ağsaqqalları və ziyalıları ilə görüş keçirib.

Görüşü giriş sözü ilə açan YAP Oğuz rayon təşkilatının sədri Saleh Məhərrəmov görüşə gələn ağsaqqalları salamladı. O, Oğuz rayonundan deputatlığa namizəd Aqiyə Naxçıvanlının xüsusi təqdimata ehtiyacı olmadığını vurğulayaraq, Oğuz ictimaiyyətindəki rolu, qanunvericilik sahəsində və respublikanın inkişafındakı xidmətlərindən bəhs edib. Daha sonra Yeni Azərbaycan Partiyasının seçki platforması, partiyanın tələbləri və dövlətin gələcəyə planlanmış siyasətindən danışan S.Məmmədov bildirib ki, seçki günü hər bir vətəndaş fəal olmalıdır.

Görüşdə çıxış edən Aqiyə Naxçıvanlı rayon ağsaqqallarını salamlayıb və gəldikləri üçün öz təşəkkürünü bildirib. O qeyd edib ki, xalqımız arasında ta qədimdən bu günədək ağsaqqal sözünə, ağbirçək nəsihətinə ehtiyac duyulub, onlar həmişə gənclərə düzgün yol göstərib, doğru istiqamətə yönəldən olublar. “Ağsaqqallar milli-mənəvi dəyərlərimizin qızıl fondudur”, - deyən Ulu Öndər Heydər Əliyev ağsaqqalları milli sərvət hesab edərək onlara böyük hörmət bəsləyirdi.

Aqiyə Naxçıvanlı bundan qabaqkı görüşün gənclərlə olduğunu qeyd edərək gənclərin problemlərindən, onların düzgün istiqamətləndirilməsindən, daim nəzarətdə saxlanılmalarının vacibliyindən danışaraq qeyd edib ki, bu gün onların ailə dəyərlərinə sahib çıxmalarını, zərərli vərdişlərdən qorunmalarını təmin etməliyik: “Çünki biz hər birimiz kənar dövlətlərdə nələrin baş verdiyini çox yaxşı görürük. Ölkə Prezidenti İlham Əliyevin məqsədyönlü siyasəti nəticəsində ölkəmiz bütün bunlardan uzaqdır. O da öz çıxışlarında dəfələrlə vurğulayır ki, ağsaqqala, ağbirçəyə hörmət, milli-mənəvi dəyərlərə sadiqlik və qorunub saxlanması gənclərin əsas vəzifələridir”.

Sonda rayon ağsaqqallarının nümayəndələri - Şabəddin Məmmədli, Seyidməmməd Quliyev, Xaliq Babayev, Səid Haciyev, Cuma Cumayev, Xanlar Ağayev, Firuddin Hafizov, Fərrux Əbilov, Əmir Şirinov, Nurəddin Məmmədov, Xanlar Ağayev və İzzət Seyidov çıxış edərək fərdi və kiçik təsərrüfatların böyük təsərrüfatlara çevrilməsinin, rayonda emal və toxuculuq sexlərinin, dərman bitkilərinin tədarük məntəqələrinin yaradılmasının vacibliyini vurğulayıblar. Onlar deputatlığa namizəd Aqiyə Naxçıvanlıya bu seçki kampaniyasında uğurlar arzulayaraq vətənimizin inkişafı yolunda apardığı mübarizəsinə xeyir-dua veriblər. Fevralın 9-da keçiriləcək parlament seçkilərində yekdilliklə rayonun layiqli övladına - Aqiyə Naxçıvanlıya səs verəcəklərini bildiriblər.

*Rövşən RƏSULOV*
*Nəzakət ƏLƏDDİNQIZI*
*RƏFİQƏ KAMALQIZI*

# Adil Əliyev: “İnanıram ki, Azərbaycan xalqı Prezident İlham Əliyevin ətrafında sıx birləşərək bu siyasətə dəstək verəcək”.

Fevralın 9-da Milli Məclisə keçiriləcək seçkilərdə 20 saylı Nərimanov ikinci seçki dairəsindən deputatlığa namizədliyini irəli sürən Adil Əliyevin seçicilərlə növbəti izdihamlı görüşü keçirilib.



Görüşdə şəhid ailələri, qazilər, veteranlarla yanaşı, ölkənin tanınmış ziyalıları, ağsaqqalları, idman cameəsinin üzvləri, sənət adamları və seçicilər iştirak ediblər. Görüşdə çıxış edən seçicilər qeyd ediblər ki, hər bir vətəndaş ölkədə gedən seçki prosesinə rəng qatmalı və seçki prosesində aktiv iştirak etməlidir: “Seçki mədəniyyəti qoy elə Nərimanov rayonundan başlasın. Bu seçkilərdə də biz hər kəsə nümunə olmalıyıq”, deyə vurğulanıb.

Görüşdə çıxış edən deputatlığa namizəd Adil Əliyev bildirib ki, hər bir seçici onun üçün əziz, hər bir səs gələcəyimiz üçün vacibdir: “Bəli, biz xalqın qulluqçusuyuq. Ancaq siz özünüz də problemlərinizin həllində aktiv olmalısınız. Artıq 4-cü dəfədir ki, mən sizin qarşınızdayam, vədlər verirəm. Amma siz yaxşı bilirsiniz ki, mən o yağlı vədlər verənlərdən deyiləm. Ötən 15 il ərzində seçki qərargahımın qapısı heç bir zaman bağlanmayıb. Bundan sonra da hər bir seçicim üçün açıq olacaq”.

A.Əliyev çıxışında onu da bildirib ki, görüşlərdə məqsəd seçkidə səs toplamaq deyil: “Onsuz da, sevginizi hər bir zaman hiss edirəm. Mənim sizdən istədiyim seçkilərdə aktiv iştirak etmək, bu vacib prosesdə yaxından iştirak etməyinizdir. Doğrudan da sizin qutuya atdığınız adlar həmin qutulardan çıxacaq. Sizin verdiyiniz səs mənəviyyatınız, sözünüz, öz rəyinizdir. Biz istəyirik ki, seçicilərimiz əvvəlcə seçkilərdə iştirak edib daha sonra Milli Məclisdən dərdlərinə çarə istəsinlər. Hazırda ölkədə bütün sahələrdə inkişaf özünü göstərməkdədir. İnanıram ki, Azərbaycan xalqı Prezident İlham Əliyevin ətrafında sıx birləşərək, bu siyasətə dəstək verəcək”.

Əməkdar artist Ədalət Şükürov, “Şeron” qrupu və digər incəsənət adamlarının ifasında bədii hissə ilə davam edib.

*RÖVŞƏN*

# YAP Səbail rayon təşkilatında müşahidəçilərlə görüş keçirilib





Dünən Azərbaycan Respublikasının Milli Məclisinə 9 fevral tarixində keçiriləcək seçkilərlə əlaqədar YAP Səbail rayon təşkilatında seçki məntəqələrində səsvermə prosesini izləyəcək müşahidəçilərlə görüş keçirilib.

Görüşdə YAP Səbail rayon təşkilatının Aparat rəhbəri Zəfər Bayramov, YAP Səbail rayon təşkilatının sədr müavinləri Muxtar Nağıyev, Əhliman Qarayev və Mehman İsmayılov çıxış edərək partiyanı təmsil edən müşahidəçilərə Azərbaycan Respublikasının Seçki Məcəlləsində olan əsas anlayışlar, müşahidə aparmağın prinsipləri, müşahidəçilərin hüquqları, riayət etməli olduqları şərtlər barədə məlumat veriblər.

Sonra müşahidəçiləri maraqlandıran suallar ətraflı cavablandırılıb.

**RƏFİQƏ HÜSEYNOVA**

# BSU-nun rektoru, professor Nurlana Əliyevanın "Qüdrətli Azərbaycan naminə" adlı kitabı nəşr olunub

***Tanınmış ədəbiyyatşünas alim, Bakı Slavyan Universitetinin rektoru, Yeni Azərbaycan Partiyasının İdarə Heyətinin üzvü, partiyanın Qadınlar Şurasının sədri, filologiya elmləri doktoru, Əməkdar müəllim, "Şöhrət" ordenli professor Nurlana Əliyevanın "Qüdrətli Azərbaycan naminə" adlı yeni kitabı nəşr olunub. Xalqımızın Ümummilli Lideri Heydər Əliyevin Azərbaycanda siyasi fəaliyyətə başlamasının 50 illiyinə həsr olunmuş bu monoqrafiya öz maraqlı məzmunu, yüksək ideya-siyasi və bədii keyfiyyətləri ilə diqqəti cəlb edir.***




Kitabın redaktoru və ön sözün müəllifi Azərbaycanda Atatürk Mərkəzinin direktoru, Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü Nizami Cəfərovdur. Akademik Nizami Cəfərov yazdığı "Ulu Öndər Heydər Əliyevin zəngin fəaliyyətinə fundamental elmi baxış" adlı ön sözdə monoqrafiyanı geniş və hərtərəfli təhlil edir, onun yüksək elmi-siyasi və bədii keyfiyyətlərini əsaslandırır. "Qüdrətli Azərbaycan naminə" kitabı "Mütərcim" Nəşriyyat-Poliqrafiya Mərkəzində yüksək poliqrafik keyfiyyətlə nəşr olunub.

Qeyd edək ki, "Qüdrətli Azərbaycan naminə" kitabında dünya siyasətinin görkəmli siması, Azərbaycan xalqının Ümummilli Lideri, böyük düha sahibi Heydər Əliyevin siyasi fəaliyyətinin 50 illik dövrünü əhatə edən fədakar fəaliyyətinə, ən böyük tarixi xidmətlərinə, xalqın nurlu gələcəyinə yönəlmiş ölməz ideyalarına işıq salınır. Eləcə də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyeva tərəfindən müstəqil ölkəmizin müasir dünya standartlarına və yeni beynəlxalq çağırışlara uyğun beynəlxalq siyasi münasibətlər sistemində layiqli yer tutan genişmiqyaslı fəaliyyətləri, çoxcəhətli addımları işıqlandırılır.

Kitabda ölkənin ən böyük və aparıcı siyasi qüvvəsi olan Yeni Azərbaycan Partiyası, örnəyə çevrilmiş Azərbaycan qadınlarının həyatı, fəaliyyəti, Dağlıq Qarabağ həqiqətləri təhlil edilir. İllərlə qələmə alınmış bu publisistik məqalələrdə Azərbaycanın uğurlu siyasəti, xalqın xoşbəxtliyi naminə öz töhfələrini vermiş şəxsiyyətlərin fəaliyyəti haqqında ən böyük həqiqətlər təqdim edilir.

**ZÜMRÜD BAYRAMOVA**

## YAP Xaçmaz rayon təşkilatında müşahidəçilərlə görüş keçirilib



Yeni Azərbaycan Partiyası Xaçmaz rayon təşkilatının qərargahında fevralın 9-da keçiriləcək Milli Məclisə seçkilərlə əlaqədar səsvermə günü məntəqələrdə müşahidə aparacaq müşahidəçilər, məşvərətçilər və rayon təşkilatının ərazi ilk partiya təşkilatlarının sədrləri ilə görüş keçirilib.

Tədbiri açan YAP Xaçmaz rayon təşkilatının sədri Şəmsəddin Xan-Babayev parlament seçkiləri ilə bağlı rayon təşkilatı tərəfindən görülən işlər haqqında məlumat verib. Həmçinin, seçki günü məntəqələr və dairələrdə səsvermənin gedişini izləmək üçün Yeni Azərbaycan Partiyası tərəfindən təyin edilmiş müşahidəçi və məşvərətçilərə vəzifələri və hüquqları haqqında ətraflı məlumat verib. Görüş müzakirələr şəklində davam edib, iştirakçıları maraqlandıran suallar cavablandırılıb.

**RƏFİQƏ HÜSEYNOVA**

# YAP Quba rayon təşkilatında müşahidəçi və məşvərətçilərlə görüş keçirilib

Yeni Azərbaycan Partiyası Quba rayon təşkilatının qərargahında 9 fevral 2020-ci il tarixində keçiriləcək Azərbaycan Respublikası Milli Məclisinə seçkilərlə əlaqədar səsvermə günü məntəqələrdə müşahidə aparacaq müşahidəçilər və məşvərətçilərlə treninq keçirilib.



Tədbirdə YAP Quba rayon təşkilatı aparatının rəhbəri Hüseyn Kərimov çıxış edərək parlament seçkiləri və partiyanın seçkilərə hazırlığı ilə bağlı iştirakçılara ətraflı məlumat verib. Daha sonra müşahidəçilərin hüquq və vəzifələrinə diqqət yetirərək bildirib ki, müşahidəçilər seçici siyahıları ilə tanış olmaq, seçicilərə seçki bülletenlərinin verilməsini müşahidə etmək, səsvermə günü istədiyi vaxt seçki məntəqəsinə daxil olaraq prosesi izləmək, seçicilərin sayını, səs verilmiş və etibarsız hesab edilmiş seçki bülletenlərinin sayılmasını müşahidə etmək, müşahidələrinin nəticələrinin seçki komissiyasının protokolunda qeyd edilməsini tələb etmək və s. hüquqlara malikdir. "Səsvermə prosesində demokratiyanın tələblərinə uyğun obyektivliyin gözlənilməsi müşahidəçilərin riayət etməli olduqları başlıca vəzifələrdir" - deyən H.Kərimov bu baxımdan, onların qanunun və seçicilərin hüquqlarının təminatına çalışmalı olduqlarını diqqətə çatdırıb.




Sonra müşahidəçiləri və məşvərətçiləri maraqlandıran suallara aydınlıq gətirilib. Qeyd olunub ki, bu seçkidə də əvvəlki seçkilərdə olduğu kimi müşahidəçilər heç bir nöqsana yol verməməli və seçkini Seçki Məcəlləsinin qaydalarına uyğun müşahidə etməlidirlər. Onlara bu şərəfli işlərində uğurlar arzulanılıb.

**Nəzakət ƏLƏDDİNQIZI**

# İNSAN HÜQUQLARININ POZULMASI HALLARI: İnsanlıq əleyhinə cinayətlər

***Genosiddən və ya müharibə cinayətlərindən fərqli olaraq insanlıq əleyhinə cinayətlərin universal müqavilə əsası yoxdur və onlar, əsas etibarilə, beynəlxalq adət hüququna və ya beynəlxalq tribunalların nizamnamə və hökmlərinə söykənir. İlk dəfə olaraq, insanlıq əleyhinə cinayətlər Nürnberq Tribunalının Nizamnaməsinin 6-cı maddəsində aşağıdakı kimi təsbit olunmuşdur: "İstənilən mülki əhaliyə qarşı müharibədən qabaq və ya müharibə dövründə Tribunalın yurisdiksiyasında olan hər hansı bir cinayətlə bağlı törədilən adamöldürmə, kütləvi qırğın, kölə vəziyyətinə salma, deportasiya və digər qeyri-insani aktlar və yaxud...siyasi,irqi və ya dini əsasda təqiblər".***

Beynəlxalq praktikanın beynəlxalq hüquq elminin sonrakı inkişafı nəticəsində insanlıq əleyhinə cinayətlərin tərkibi bir qədər genişlənmişdir. İnsanlıq əleyhinə cinayətlərin anlayışını mövcud beynəlxalq hüquq normalarına görə müəyyən etmək üçün mötəbər beynəlxalq sənəd olan Sülh və bəşəriyyətin təhlükəsizliyi əleyhinə olan cinayətlər Məcəlləsinin Layihəsinə müraciət etmək olar. Pozitiv hüququ ozündə əks etdirən bu sənədin 18-ci maddəsində deyilir:" İnsanlıq əleyhinə cinayət sistematik və ya geniş miqyasda törədilən və hökumət və ya istənilən təşkilat yaxud qrup tərəfindən həvəsləndirilən və ya istiqamətləndirilən aşağıdakı əməllərdən hər hansı biri deməkdir:

1) adamöldürmə;
2) kütləvi qırğın;
3) işgəncə;
4) kölə vəziyyətinə salma;
5) siyasi, dini, irqi və ya etnik motivlər üzrə təqib etmə;
6) əsas insan hüquq və azadlıqların pozulmasını əhatə edən və
əhalinin bir hissəsini ciddi sıxışdırılmasına gətirib çıxaran;
7) dini, irqi və ya etnik əlamətlər əsasında ayrı-seçkilik;
8) özbaşına deportasiya və ya əhalinin məcburi köçürülməsi;
9) özbaşına həbs etmə;
10) zorlama və ya fahişəliyə məcbur etmə;
11) fiziki və ya psixi toxunulmazlığa, səhhətə və ya insan ləyaqətinə ciddi zərər yetirən digər qeyri-insani əməllər, məsələn, ağır bədən xəsarəti yetirilməsi."

İnsanlıq əleyhinə cinayətlərin obyektiv cəhəti olduqca genişdir və buraya müxtəlif xarakterli əməllər daxildir. Bu əməllərin insanlıq əleyhinə cinayət kimi tövsif olunması üçün 2 ümumi şərt tələb olunur:

1) əməl sistematik və ya geniş miqyasda törədilməlidir;
2) əməl hökumət və ya istənilən təşkilat yaxud qrup tərəfindən həvəsləndirilməli və ya istiqamətləndirilməlidir. Bu şərt onu bildirir ki, şəxs təkbaşına insanlıq əleyhinə cinayət törədə bilməz.

Nürnberq Tribunalının Nizamnaməsindən fərqli olaraq insanlıq əleyhinə cinayətlərin müasir tərifi belə bir şərti nəzərdə tutmur ki, əməl müharibə zamanı və ya sülh əleyhinə cinayətlərlə, yaxud müharibə cinayətləri ilə bağlı törədilməlidir. Qüvvədə olan beynəlxalq hüquqda insanlıq əleyhinə cinayətlərin "avtonom statusu" qəbul olunmuşdur. Belə ki, Yuqoslaviya və Ruanda tribunallarının nizamnamələri (müvafiq olaraq 5-ci və 3-cü maddələr) digər bir beynəlxalq cinayətlə əlaqənin olunması tələbini nəzərdə tutmur. Bundan əlavə, Ruanda tribunalının nizamnaməsində birbaşa göstərilir ki, insanlıq əleyhinə cinayətlər müharibə zamanı və ya dinc vaxtı törədilə bilər.

XX əsrin sonu və XXI əsrin əvvəlində erməni cəlladlarının simasında faşizm yenə də tüğyan etməkdədir. Beynəlxalq konvensiyalara məhəl qoymayan ermənilər azərbaycanlı dinc əhaliyə və hərbi əsirlərə münasibətdə ağlasığmaz qəddarlıq nümunəsi nümayiş etdiriblər. Tarixin bütün dövrlərində himayədarlarının qəyyumluğundan və dəstəyindən yararlanaraq Azərbaycanı öz hədəfinə çevirmiş erməni cinayətkarlarının məqsədi dövlətçiliyimizin zəiflədilməsi, ümumiyyətlə xalqımızın tarix səhnəsindən silinməsi olmuşdur. Xalqımıza qarşı özlərinin mənfur niyyətlərini həyata keçirən ermənilər bu məqsədlə soyqırım, deportasiya, terror, sui-qəsd, mədəni-mənəvi təcavüz və ən nəhayət ərazilərimizin işğalı kimi vasitələrdən istifadə etmişlər. Erməni cinayətkarlığına xas olan başqa bir cəhət onun biiavsitə dinc əhaliyə qarşı yönəlməsindədir. Bunla məqsəd heç də Azərbaycan xalqının əzabkeş obrazını yaratmaq deyildir, sadəcə olaraq ələhəzrət faktları oxucuların mühakiməsinə buraxmaqdır. Özlərinin uydurma faciələrini şişirtmək, tarixi hadisələri müasir geosiyasi mübarizənin predmetinə çevirmək, məhz ermənilərin xislətinə xasdır. Bu gün Azərbaycan Respublikasının hüquq-mühafizə orqanları həmin cinayətlərin ifşa olunması və cinayətkarların layiqli cəzalarını alması istiqamətində səylərini birləşdirmişlər. Dövlət Təhlükəsizlik Xidməti, Respublika Baş Prokurorluğu və Daxili İşlər Nazirliyinin birgə yaratdıqları əməliyyat-istintaq qrupunun məqsədi hadisələrə hüquqi qiymət verməklə cinayətkarların beynəlxalq məhkəmə qarşısında məsuliyyət daşımasına nail olmaqdır. Zamanın çarxını geri döndərmək olmaz. Lakin onun acı ibrət dərslərindən nəticə çıxarmaq nə vaxtsa həqiqət donu geyindirilmiş yalanları ifşa etmək mümkündür və son dərəcə zəruridir.

Faşizm ideologiyasına görə, millətlər aşağı və ali kateqoriyalara bölünür. Özü də bu cəmiyyətdə ali millətlərin digərləri üzərində ağalıq etməsi nəzərdə tutulur. Faşist ideoloqları öz qarşılarına ağlagəlməz böyük vəzifələr qoymuşlar. Məsələn, Mussolininin Aralıq dənizi imperiyası, Hitlerin minillik "Böyük reyx" yaratmaq arzusu axırda onların fəlakətli məğlubiyyəti ilə nəticələnmişdir. İkinci Dünya müharibəsində faşizm məğlubiyyətə düçar olsa da, sonralar yenə də dirçəldilmişdir. Bu dirçəlmə neofaşizm (yeni faşizm) adını almışdır. Bu gün neofaşizm çox təhlükəlidir. Bu da onunla bağlıdır ki, bir sıra ölkələrdə siyasi qüvvəyə çevrilməkdədir. Bədnam qonşumuz da Mussolini və Hitler kimi qarşısına "böyük Ermənistan" yaratmağı baş məqsəd qoymuşlar. Xəyallarında "böyük Ermənistan"ı reallaşdırmaq üçün dəridən-qabıqdan çıxan ermənilər bütün dünyaya sübut etmək istəyirlər ki, onların tarixi çox qədimdir. Hətta Ermənistanın sabiq prezidenti Serj Sarkisyan sərsəmliklə, guya ermənilərin səkkiz min illik dövlətçilik tarixi olduğunu qeyd edirdi. Bu qədər yalan, bu qədər həyasızlıq yalnız erməni millətinə xasdır. "Qışqıra-qışqıra danışmaq bu xalqın xəstəliyidir. Başqa millətləri də özlərinin xeyrinə qışqırmağa, yalan informasiya yaymağa cəlb edə bilirlər" (Yemçuynikov - yazıçı). Heç də təsadüfi deyil ki, xarici aləmə sıx-sıx səpələnmiş ermənilər türk dünyasına, xüsusilə də, bizə qarşı mətbu orqanlarda məqalələr yazdırır, elə hey özlərini "əzabkeş" kimi təqdim edirlər. Burada Əmir Teymurun ermənilər haqqında dediyi bir fikir yada düşür: "Erməniləri bir millət kimi yer üzündən silmədiyim üçün gələcəkdə ya məni alqışlayacaq, ya da lənətləyəcəklər". Xeyr, Əmir Teymur deyil, lənətlənəsi erməni faşizmidir. Son illərdə İrəvanda faşist Qaregin Njdeyə abidə qoyulması Azərbaycanda olduğu kimi, Rusiyada da böyük narazılığa səbəb olub. Kimdir Qaragen Njde? Qaregin Njde İkinci Dünya müharibəsində Hitler Almaniyası ilə əməkdaşlıq edib, hərbi əsir erməniləri öz tərəfinə çəkərək Almaniya tərəfində vuruşmağa çağırırdı. O, əsir ermənilər qarşısında dəfələrlə çıxış edir, onları SSRİ-yə qarşı mübarizəyə çağırıb: "Almaniya uğrunda ölən hər kəs Ermənistan uğrunda ölmüş olacaq". Erməni legionu Njdenin başçılığı ilə 20 minə yaxın sovet insanının, əsasən dinc vətəndaşların qanını töküb. Bu cəllad Azərbaycanda minlərlə soydaşımızın günahsız qanını axıdıb, Zəngəzurda soyqırımı aparıb. Bu barədə Azərbaycan Prezidenti İlham Əliyevin MDB dövlət başçılarının yüksək səviyyəli Aşqabad görüşündə ciddi əsaslandırılmış açıqlaması bütün dünyanı erməni faşizminin mahiyyəti barədə məsuliyyətlə düşünməyə çağırışkimi səsləndi. Rusiya Federasiyası Şurasının sosial siyasət komitəsinin sədr müavini Lüdmila Kozlova da "Nezavisimaya qazeta"da geniş məqalə yazaraq faşist Njdeyə heykəl qoyulmasını pisləmiş, bunun BMT Baş Assambleyasının nasizm və neofaşizmin qəhrəmanlaşdırılması ilə bağlı müvafiq qətnaməsinə zidd olduğunu göstərmişdir. Rusiya Xarici İşlər Nazirliyi də o zaman etirazını bildirib. Bütün bunlara baxmayaraq, ermənilər böyük qardaşının iradlarını qulaqardına vuraraq, bir az da irəli gedərək Rusiyanın Vladimir şəhərinə Njde adının verilməsini təklif etmişlər. Bu azmış kimi, Bolqarıstanda da əli on minlərlə insanın qanına batmış faşistə heykəl qoymaq istəyirdilər. Terrorizm və faşizmin təbliği erməni xalqının və Ermənistan dövləinin milli ideologiyasının mahiyyətini əks etdirir. Beynəlxalq münasibətlər sahəsində tanınmış israilli ekspert Arye Qut ingilisdilli "The İerusalem Post" qəzetində dərc edilmiş "Ermənistan terrorçuları tərifləməklə faşizmi dövlət siyasətinə çevirib" sərlövhəli məqaləsində yazırdı ki, doğrudanmı ermənilərin Njde kimi faşistlərdən başqa qəhrəmanı olmayıb? Ermənistanda faşizm ilə yanaşı, dövlət səviyyəsində terrorizmin qəhrəmanlaşdırılması siyasəti yürüdülür. Erməni faşizmi XX əsrin sonu - XXI əsrin əvvəllərində daha da aqressvləşdi. Keçən il 100, bu günlərdə isə 101 illiyini andığımız 1918-ci ilin müdhiş mart soyqırımı, 1992-ci ilin Xocalı soyqırımı, əsir götürülmüş soydaşlarımızın başına gətirələn müsibətlər bir daha göstərdi ki, türk qanına susayan ermənilər dünyaya sanki qan tökmək üçün gəliblər.

Hələliksə, Ermənistanın əsas məqsədi status-kvonun saxlanmasıdır. Çalışırlar ki, vaxt uzansın, bəlkə, Azərbaycan ətraf rayonların qaytarılmasına, Dağlıq Qarabağın isə Ermənistana birləşməsinə razılıq verdi. Bu da mümkün olan iş deyil. Azərbaycan gec-tez işğal olunmuş əzəli torpaqlarını müharibə yolu ilə də olsa, geri alacaq.

***Vahid Ömərov,***
***fəlsəfə üzrə fəlsəfə doktoru***




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

# Qulu Məhərrəmli özünü və tarixi unudub!

## *Yaxud, “SƏS” qəzetinin adı və fəaliyyəti onu niyə xoflandırır?*

***Təəssüf ki, bu gün Azərbaycanda özlərini “ziyalı” adlandırıb bu ad altında ölkənin möhtərəm zümrəsinin adını batırmağa çalışanlar hazırda da mövcuddurlar. Təbii ki, belə “ziyalılar”ın ortada var-gəl etmələri, ictimai-siyasi proseslərə öz təbirlərincə münasibət bildirmələri elə-belə deyil, bunun müəyyən tərəfləri var. Daha dəqiqi isə maraqları var. Məsələn, Qulu Məhərrəmli kimi...***



### Kin və xof tipindəki münasibətlər, əslində qəzetimizin mübarizlik ruhunu, dövlətçilik maraqlarının qorunması yolunda külüng vurması istəyini daha da artırır

Bir zamanlar qəzet redaksiyamıza günaşırı şəkildə daban döyən, indi isə adı gələndə belə xoflanan, qorxuya düşən Q.Məhərrəmlinin özünü “görkəmli jurnalist” kimi ictimai rəyə sırımaq cəhdi şəxsən məni düşünməyə vadar etdi. Məsələ ondadır ki, KİVDF-nin maliyyə ayırdığı mətbu orqanlar arasında “SƏS” qəzetinin də yer alması ilk növbədə, bu qəzetin müstəqil mediamızda adının, yerinin, dəyərinin olması faktıdır. Bu gün Q.Məhərrəmli olmasın, onun kimi qeyrisi olsun - yersiz və əsassız şəkildə “SƏS”-i hədəfə alma cəhdləri sanki bir ənənəyə çevrilib. Bu “ənənə”, yəni kin və xof tipindəki münasibətlər, əslində, qəzetimizin mübarizlik ruhunu, dövlətçilik maraqlarının qorunması yolunda külüng vurması istəyini daha da artırır. Bu baxımdan, Q.Məhərrəmli bilməlidir, anlamalıdır ki, onun qəzetimizə etdiyi uğursuz “hücumu” ictimai rəyə, oxucu kütləmizə qətiyyən sirayət etməyib. Əksinə, Q.Məhərrəmli burada özünüifşaya yol verib. Bəs nədədir onun özünüifşası?

### Əgər Qulu Məhərrəmli həddini aşıb bunu da görməzlikdən gəlirsə, öz səviyyəsizliyini, məzmunsuzluğunu daha çox etiraf edir

Biz, elə də uzağa getməyərək, “görkəmli jurnalistin” var-gəllərini onun “SƏS” qəzetinin kuluarlarında verdiyi müsahibələri ilə, dəyirmi masalara qatılmaq üçün elədiyi müraciətlərini də xatırlada bilərik. Belə olan halda, əgər o iddia edirsə ki, qəzet “məzmunsuzdur”, deməli onun özü də bu uğursuz fikri ilə aşkar düşüncəsizliyini, açıq məzmunsuzluğunu ortaya qoyur. “SƏS”in isə dəyərini vaxtilə Ulu Öndər Heydər Əliyev verib, onu “ən əziz qəzet” adlandırıb və “SƏS” qəzeti bu gün ölkə mətbuatında yeganə mətbu qurumdur ki, onun yubileyi münasibəti ilə ölkə başçısı İlham Əliyev təbrik məktubu ünvanlayıb!

Əgər Q.Məhərrəmli həddini aşıb, bunu da görməzlikdən gəlirsə, öz səviyyəsizliyini, məzmunsuzluğunu daha çox etiraf edir, özü də bilmədən.

Belələri başa düşməlidirlər ki, “SƏS” qəzetinə qarşı nə qədər çox “buynuz” çıxaracaqlarsa, bir o qədər daha ağır zərbələrə, cavablara məruz qalacaqlar. Bu, təhdid deyil, bu, böhtanları və şərləri yerində və zamanında cavablandırma haqqımızdır!

### Qulu Məhərrəmli kimi “görkəmli jurnalistlər” isə getsinlər dəyərsiz, reketçi saytlarda nə qədər istəyirlərsə həmdən-həmə, dəmdən-dəmə mızıldansınlar

“SƏS” qəzeti bu gün yalnız qəzet deyil, həm də İnternet TV-si, saytı olan Media Qrupdur ki, öz fəaliyyəti ilə oxucu kütləsinin hörmətini, auditoriyasının rəğbətini qazanıb. Q.Məhərrəmli kimi “görkəmli jurnalistlər” isə getsinlər dəyərsiz, reketçi saytlarda nə qədər istəyirlərsə həmdən-həmə, dəmdən-dəmə mızıldansınlar. Özlərini bu vasitələrlə rüsvay etsinlər.

Yeri gəlmişkən, xatırlatma edə bilərik ki, Q.Məhərrəmlinin zaman-zaman ölkəmizin dövlətçilik maraqlarına qarşı çıxış etməsi faktı dəfələrlə üzə çıxıb. Xüsusilə, radikal, destruktiv müxalifət cinahında tez-tez görünən bu şəxs istədiyi maraqları təmin edilməyəcəyi təqdirdə, dərhal mövqe dəyişkənliyi ilə seçilir. Vaxtilə Azərbaycan Dövlət Televiziyasında mövcud iqtidarı dəstəklədiyini dəfələrlə bəyan edən Q.Məhərrəmli məlum səbəblər üzündən oradan çıxarılan kimi özünü dağıdıcı müxalifətin yanında tapmış olduğunu da dəyərli oxucularımızın diqqətinə çatdıra bilərik. Bunu isə daha bir adla - əqidəsizliklə əlaqələndirə bilərik. Əqidəsizdən isə, nə desən, hansı xəyanəti desən gözləmək olar!

### Rüstəm İbrahimbəyov Qulu Məhərrəmliyə hakimiyyətə yiyələnən kimi Az TV-nin sədri postunu verəcəkmiş...

Heç də uzağa getməyərək, 2013-cü ilin prezident seçkilərini xatırlayaq... Həmin ərəfələrdən başlayaraq müxalifətin mədhiyyəçisi rolunu Qulu Məhərrəmli “Milli Şura”nın “simasına” çevrilərək, qurumun o zamankı sədri Rüstəm İbrahiməyovun sözçüsünə çevrilmişdi. Ona bu vəzifəni AXCP sədri Əli Kərimli təqdim etmişdi. Həmişə “adına layiq” iş görən, ucuz, şou xarakterli mədhiyyələri ilə ürəkləri bulandıran Q.Məhərrəmli adlı subyekt Moskvadan göndərilən paraların qarşısında tab gətirə bilmədi və saxlaya bilmədiyi vicdanını hərraca çıxardı, nədir ki, həmin vaxtlar R.İbrahimbəyov Q.Məhərrəmliyə hakimiyyətə yiyələnən kimi Az TV-nin sədri postunu verəcəkmiş və s...

İndi də bənzər hal davam edir. Əqidəsi ingilis bayrağı kimi ora-bura yellənən Q.Məhərrəmli “SƏS”i hədəfə alarkən, özü “SƏS”in hədəfinə düşdü, layiqli cavabını da almaqda davam edəcək, bax bundan qəti şübhə etməsin. Çünki “SƏS” qəzeti bir cinahdadır və heç vaxt öz əqidəsini dəyişməyib, zamanında işlərində nöqsan edən dövlət məmurlarını da, dövlətçilik maraqlarına qarşı çıxan istənilən şəxsi də iti qələmi ilə süngüləyib!

### Özünü “görkəmli jurnalist” kimi təqdim etdiyi kimi, Əkrəm Əylislini “Azərbaycanın görkəmli xalq yazıçısı” olaraq cəmiyyətə sırımağa çalışmışdı

Əfsus ki, bu gün Q.Məhərrəmlinin ətrafında ona “qaz” verənlərin bəlkə də çoxu bilmir ki, bu adam Ermənistanda “xalq qəhrəmanı” elan edilmiş, erməni xalqına mədhiyyə yazmış, azərbaycanlıları qəddar, vəhşi kimi təqdim etmiş Əkrəm Əylislini və onun bədnam “Daş yuxuları”nı qaynar şəkildə müdafiə etmişdi, bu gün özünü “görkəmli jurnalist” kimi təqdim etdiyi kimi, Ə.Əylislini “Azərbaycanın görkəmli xalq yazıçısı” olaraq cəmiyyətə sırımağa çalışmışdı. Görəsən nəyə görə? Əlbəttə ki, buradakı maraqlarına görə, haradansa alacağı qrantlara görə, erməni puluna görə..!

Beləliklə, Q.Məhərrəmli guya ki, bizə meydan oxumaq istəyir, amma onun oxuduğu şey meydan deyil, bir zarıltıdır, inləmədir, mızıldanmadır - həm də “SƏS”in süngüsündən xoflanma reallığı..!

***Rövşən RƏSULOV***

# Natiq Cəfərli: “Cəmil Həsənli əsl kloundur”



9 fevral parlament seçkilərinə saylı günlər qaldığı ərəfədə yenə də qondarma qurum olan “Milli Şura”nın sədri Cəmil Həsənli seçiləcək namizədlərlə bağlı münəccimlik edib. Araqarışdırmaqda fəal olan bu qoca “prolfessor” parlamentə seçiləcək namizədlərin adlarını “açıqlamaqla” növbəti oyunbazlıq edir. Hələ seçki başlamayıb, kim seçiləcək, kim seçilməyəcək bəlli deyil. Görünür bu qoca “professor” fala baxmaqda da “professor” olmaq istəyir. Ancaq bununla “qaş düzəltdiyi yerdə vurub göz də çıxarır”. Bu siyasi hoqqabazlığı dağıdıcı müxalifət düşərgənin digər qanadında təmsil olunan şəxslər tərəfindən də sərt şəkildə qınanılıb.

### Cəmil Həsənlinin məqsədi...

“REAL” partiyasından namizədliyini irəli sürmüş icra katibi Natiq Cəfərli C.Həsənlini ağ yuyub, qara sərib: “Məni şəxsən üzən məsələ ondan ibarətdir ki, bu siyahını yayan adam - “Milli Şura”nın sədri özü iki dəfə deputat olub. İndi onun siyahı yaymasından onun özünə sual ünvanlayıram ki, əgər indiyə qədər seçkilər sizin dediyiniz kimi keçirilibsə, etiraf etmisinizmi siz də iki dəfə deputat mandatını saxta yolla almısınız?”

“REAL”çı funksioner C.Həsənlinin heç vaxt özünə “qiymət” vermədiyini, həmişə də klounluq etdiyini bildirib: “C.Həsənlinin mənəviyyatı olsaydı AXCP sədri Əli Kərimli onu “Milli Şura” nın sədri kimi yox, əl kuklası kimi istifadə etməzdi. Onun bu hərəkəti ancaq və ancaq təxribat addımıdır. “Milli Şura” özü seçkilərdə iştirak etmir və yanlış olaraq da insanların seçkilərə marağının azalmasını, seçkiyə qatılmamalarını istəyir. Məqsəd budur. Bu, çox yanlış və zərərli fəaliyyətdir. Çünki seçicilərin seçkidə aktivliyinin yüksək olmasının özü demokratiya nümunəsidir. “Boykotçular” insanları seçkidən soyutmağa çalışırlar”.

Nəticə isə bəllidir - artıq düşərgədə doğru ilə yanlışlıqlar göz önündədir və hətta onun digər qanadını təmsil edənlər də, reallığı görür, dərk edirlər. Bu isə, bir qəpiklik qiyməti olmayan C.Həsənli kimilərin niyyətləri gözlərində qalacaq.

***Rəfiqə HÜSEYNOVA***

## “Gültəkin Hacıbəyli nüfuzu olmayan insandır”

Müsavat və “REAL” partiyalarının parlament seçkilərində iştirak etməklə bağlı qərarı dağıdıcı müxalifət düşərgəsində xoş qarşılanmayıb. Ənənəvi “boykot” yolunu tutan “Milli Şura” və AXCP 9 fevral seçkilərinə qatılan Müsavat və “ReAL”-ı hədəfə almaqdadır. Ən maraqlısı isə ələkçinin qıl verəni rolunda çıxış edən “Milli Şura” üzvü Gültəkin Hacıbəyli öncəgörmə “bacarığını” işə salaraq bəyan edib ki, seçkidə Müsavat 3, “ReAl” 2 mandat alacaq. Daha sonra Hacıbəyli hər iki partiyanı seçkidə iştirak etdiyi üçün nüfuzsuz və zəif olmaqda suçlayıb: “Müsavat qurultaydan və mühacir biznesinin ifşa olunmasından sonra faktiki nüfuzsuz təşkilata çevrilib. “ReAL” isə İlqar Məmmədovdan ibarət partiyadır. Bu durumda onların seçkidə uğur qazana biləcəyi mümkün görünmür”.

Bu fikirləri ilə əsl sifətini bir daha nümayiş etdirən G.Hacıbəyli görəsən deputat olduğu müddətdə milyonları əldə etməsini nə tez unudub? G.Hacıbəyli, seçdiyi bu yolun sonu varmı?

Nə qədər yalan məlumatları müəyyən Qərb diplomatik nümayəndəliklərinə ötürəcəksən? Bax, buna nə ad verək olar? G.Hacıbəyli nə qədər böhtan və yalanlar söyləyəcəksən? Elə bu yerdə 2009-cu ildə keçirilən referendum zamanı İTV-də keçirilən debatda Hüquq və Demokratiya Təşviqat Qrupunun vəkili olan G.Hacıbəyli ilə İ.Qəmbər arasında baş verən insidenti yada salmaq yerinə düşər. G.Hacıbəyli “terrorçuları və casusları cəmiyyətə siyasi məhbus kimi sırıyanlar” deyəndə də AXCP sədri Ə.Kərimlini və Müsavat başqanı İ.Qəmbəri nəzərdə tuturdu. Bu 10 ildə nə dəyişdi ki? Nə tez müxalifətçi oldun? Bax, istər Müsavatı, istəsə də “ReAL”-n sən G.Hacıbəylini nüfuzsuz və mənəviyyatsız adlandırması lap yerində deyilib.

Bəli, bu, həmin Gültəkindir, dünən iqtidarçı, bu gün müxalifətçi, sabah heç kim olmayan Gültəkin, ələkçinin qıl verəni. Düzü yazığım da gəlmir sənə. Çünki sənin kimi rəzil görməmişəm. Yazıqlar və lənətlər olsun sizlərə!!!

***R.KAMALQIZI***

# İNSAH HÜQUQLARININ POZULMASI HALLARI: Genosid

***Beynəlxalq hüquqa görə genosid (yun. genos - qəbilə, tayfa və lat. caedo - öldürürəm) ən ağır beynəlxalq cinayət olmaqla təcavüz, insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, beynəlxalq terrorizm kimi cinayətlərlə yanaşı sülh və bəşəriyyətin təhlükəsizliyi əleyhinə yönələn cinayətlər qrupuna aid edilir. Beynəlxalq cinayət hüququnda genosid, xüsusilə, təhlükəli beynəlxalq cinayət kimi dəyərləndirilir. Genosid cinayətinin tərkibi bir sıra beynəlxalq-hüquqi aktlarda müəyyənləşdirilmişdir. Genosid cinayətinin əsas tərkib elementini zəruri niyyətin təşkil etməsi və onun dinc dövrdə törədilə bilməsi də, bu əməli digər oxşar beynəlxalq cinayətlərdən, xüsusilə də, insanlıq əleyhinə cinayətlər və müharibə cinayətlərindən fərqləndirir.***

Məhz buna görə də, genosid, Yuqoslaviya və Ruanda Tribunalları nizamnamələrində, Beynəlxalq Cinayət Məhkəməsinin Statusunda və bir sıra digər sənədlərdə ayrıca beynəlxalq cinayət kimi fərqləndirilmişdir.Genosid cinayətinin hüquqi əsası BMT Baş Məclisinin 9 dekabr 1948-ci il tarixli 260 (III) saylı qətnaməsi ilə qəbul edilmiş genosid cinayətinin qarşısının alınması və cəzalandırılması haqqında Konvensiya ilə müəyyən olunmuşdur. Konvensiyanın preambulasında qeyd olunduğu kimi, genosidin bütün tarix boyu bəşəriyyətə böyük itkilər gətirdiyini etiraf edərək, bəşəriyyəti bu mənfur bəladan xilas etmək üçün beynəlxalq əməkdaşlığın zəruriliyini nəzərə alınaraq bu Konvensiya qəbul olunmuşdur. Konvensiyaya görə genosid hər hansı milli, etnik, irqi, yaxud dini qrupu tam və ya qismən məhv etmək məqsədilə edilən aşağıdakı hərəkətlərdir: - bu cür qrup üzvlərinin öldürülməsi; - belə qrup üzvlərinə ağır bədən xəsarəti, yaxud əqli pozğunluq yetirilməsi;

- hər hansı qrup üçün qəsdən onun tam, yaxud bir qisminin fiziki məhvini nəzərdə tutan tədbirlərin görülməsi;

- uşaqların zorla bir insan qrupundan alınıb başqasına verilməsi.

Analoji müddəa Yuqoslaviya beynəlxalq cinayət tribunalının nizamnaməsində (4-cü maddə), Ruanda Beynəlxalq Cinayət Tribunalının nizamnaməsində (3-cü maddə), Sülh və bəşəriyyətin təhlükəsizliyi əleyhinə cinayətlər Məcəlləsinin layihəsində (17-ci maddə), Beynəlxalq Cinayət Məhkəməsinin Statusunda (6-cı maddə) və bəzi dövlətlərin cinayət qanunvericiliyində əks olunmuşdur. Belə bir müddəa Azərbaycanın daxili qanunvericiliyində də təsbit olunmuşdur. Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 103-cü maddəsinə əsasən, hər hansı milli, etnik, irqi və ya dini qrupu, bir qrup kimi bütövlükdə və ya qismən məhv etmək məqsədilə qrup üzvlərini öldürmə, qrup üzvlərinin sağlamlığına ağır zərər vurma və ya onların əqli qabiliyyətinə ciddi zərər vurma, qrupun bütövlükdə və ya qismən fiziki məhvinə yönəlmiş yaşayış şəraiti yaratma, qrup daxilində doğumların qarşısını almağa yönəlmiş tədbirləri həyata keçirmə, bir qrupa mənsub olan uşaqları zorla başqa qrupa keçirmə genosid sayılır. Konvensiyanın iştirakçı dövlətləri sülh, yaxud müharibə dövründə törədilməsindən asılı olmayaraq genosidin beynəlxalq hüquq normalarını pozan cinayət olduğunu təsdiq edir və onun qarşısını almaq və onun törədilməsinə görə cəzalandırmaq üçün tədbirlər görməyi öhdələrinə götürmüşlər. Konvensiyaya əsasən genosid, genosid törətmək məqsədilə suiqəsd, genosidə birbaşa və açıq təhrikçilik, genosidə cəhd, genosiddə iştirak etmək əməlləri cəzalandırılır. Genosid cinayətinə görə məsuliyyət universal olduğundan bununla bağlı digər dövlətlər də müvafiq tədbirlər görə bilərlər. Belə ki, Konvensiyanın əsasında duran prinsiplər, BMT Beynəlxalq Məhkəməsi tərəfindən bütün dövlətlər üçün məcburi xarakter daşıyan normalar kimi tanınmışdır. Konvensiyada qeyd edilir ki, genosidi həyata keçirmiş şəxslər konstitusiyaya görə məsul şəxs olmasından asılı olmayaraq cəzalandırılmalıdırlar.

BMT Baş Məclisinin 3 dekabr 1973-cü il tarixli qətnaməsi ilə qəbul edilmiş "Hərbi cinayətlərdə, bəşəriyyətə qarşı cinayətlərdə müqəssir olan şəxslərin aşkara çıxarılması, həbs edilməsi, təhvil verilməsi və cəzalandırılmasına dair beynəlxalq əməkdaşlığın prinsipləri"nə müvafiq olaraq, hərbi cinayətlərdə və bəşəriyyətə qarşı cinayətlərdə müqəssir olan şəxslərin məhkəmə təqibinin və cəzalandırılmasının təmin edilməsinə yönəldilmiş beynəlxalq tədbirlərin görülməsinə xüsusi zərurət vardır. Hərbi cinayətlər və bəşəriyyətə qarşı cinayətlər nə vaxt və harada törədilməsindən asılı olmayaraq tədqiq edilməli, belə cinayətləri törətdikləri barəsində dəlillər olan şəxslər isə axtarılmalı, həbs edilməli, məhkəmə məsuliyyətinə cəlb olunmalı və müqəssir sayıldıqda, cəzalandırılmalıdırlar. Dövlətlər belə cinayətlərdə şübhəli olan şəxsləri aşkara çıxarmaq, həbsə almaq, məhkəməyə cəlb etmək və müqəssir sayıldıqda, cəzalandırmaq məqsədilə bir-birinə yardım göstərirlər.

Bir məqamı da vurğulamaq lazımdır ki, genosid cinayətinə görə məsuliyyətin meydana çıxması üçün bütövlükdə müəyyən qrupun məhv edilməsindən ibarət son nəticə tələb olunmur. Yuxarıda qeyd etdiyimiz genosid cinayətinin tərkibini təşkil edən əməllərdən birinin və ya bir neçəsinin müəyyən qrupun tamamilə və ya qismən məhv edilməsi niyyətilə törədilməsi genosid kimi qiymətləndirilir".

Xocalı soyqırımı Azərbaycan tarixinə ən dəhşətli və faciəli səhifələrdən biri kimi daxil olmuşdur. Azərbaycanın Ümummilli Lideri Heydər Əliyev Xocalı soyqırmının on illiyiyi münasibətilə Azərbaycan xalqına müraciətinə qeyd etmişdir: "Bu amansız və qəddar soyqırım aktı insanlıq tarixinə ən qorxulu kütləvi terror aktlarından biri kimi daxil oldu".

Ermənilərin Xocalı şəhərini hədəfə almaqda məqsədi nə idi? Bu bir tərəfdən Qarabağın dağlıq hissəsində azərbaycanlılardan ibarət olan, strateji əhəmiyyətli maneəni aradan qaldırmaq idisə, digər tərəfdən ümumiyyətlə Xocalını yer üzündən birdəfəlik silmək məqsədi idi. Çünki Xocalı elə bir yaşayış məskəni idi ki, o, Azərbaycan tarixinin qədim dövrlərindən müasir dövrə qədər tarix və mədəniyyət ənənələrini özündə əks etdirirdi. Bu xüsusi mədəniyyət tarixə Xocalı-Gədəbəy mədəniyyəti kimi düşmüşdür. Xocalının kromlexləri, dolmenləri, sikllopları, kurqanları və digər abidələri, həmçinin müxtəlif növ məişət əşyaları insan cəmiyyətinin inkişaf dinamikasını özündə əks etdirən maddi mədəniyyət nümunələridir. Erməni işğalından sonra bütün bu maddi mədəniyyət abidələrinin məhv edilməsi və dünyanın ən qədim məzarlıqlarından sayılan Xocalı qəbiristanlığının texnika vasitəsiylə darmadağın edilməsi erməni vandalizminin bariz nümunəsi olmaqla yanaşı dünya mədəniyyətinə qarşı zorakılıq aktıdır.

1992-ci il fevralın 26-da Ermənistan hərbi birləşmələri 7 min əhalisi olan Xocalı şəhərində genosid aktı həyata keçirdi. Ermənistan hərbi birləşmələrinin şəhərə hücumu zamanı burada yalnız 3 minə yaxın insan qalmışdı. Çünki, mühasirədə qaldığı 4 aydan artıq zaman ərzində blokadada olduğu üçün əhalinin xeyli hissəsi şəhərdən çıxmaq məcburiyyətində qalmışdı. Xocalı soyqırımı zamanı 613 nəfər ödürüldü, 1000 nəfər müxtəlif yaşlı dinc sakin aldığı güllə yarasından əlil oldu. 106 nəfər qadın, 63 azyaşlı uşaq, 70 qoca öldürüldü. 8 ailə tamamilə məhv edildi, 25 uşaq hər iki valideynini, 130 nəfər valideyinlərindən birini itirdi. Faciə baş verən gecə 1275 nəfər dinc sakin girov götürüldü, onların 150-sinin taleyi indi də məlum deyil.

Bütün bunlar erməni hərbçiləri tərəfindən xüsusi amansızlıqla və ağlasığmaz vəhşiliklə həyata keçirilmişdir. Hücumda, həmçinin, mayor Oqanyan Seyran Muşeqoviçin komandanlığı altında 366-cı alayın 2-ci batalyonu, Yevgeni Nabokixinin komandası altında 3-cü batalyonun, 1 saylı batalyonun qərargah rəisi Çitçyan Valeriy İsayeviç və alayda xidmət edən 50-dən artıq erməni zabit və praporşik iştirak etmişdir. ("Xocalının işğalına dair istintaq materiallarından").

Şəhər əhalisinin bir hissəsi zorakılıqdan qaçıb qurtarmaq istəyərkən əvvəlcədən düzəldilmiş pusqularda qətlə yetirilmişdir. Rusiyanın "Memorial" hüquq-müdafiə mərkəzinin məlumatına əsasən, dörd gün ərzində Ağdama Xocalıda qətlə yetirilmiş 200 azərbaycanlının meyiti gətirilmiş, onlarla meyitin təhqirə məruz qalması faktı aşkar edilmişdir. Ağdamda 181 meyit (130 kişi və 51 qadın, o cümlədən, 13 uşaq) məhkəmə-tibbi ekspertizasından keçirilmişdir. Ekspertiza zamanı müəyyən edilmişdir ki, 151 nəfərin ölümünə güllə yaraları, 20 nəfərin ölümünə qəlpə yaraları səbəb olmuş,10 nəfər küt alətlə vurularaq öldürülmüşdür. Hüquq-müdafiə mərkəzi diri adamın baş dərisinin soyulması faktını da qeydə almışdır.

Xocalı soyqırımının epizodları insanı dəhşətə gətirir. Xocalı sakini Əntiqə erməni hərbçilərinin tələb etdiyi "bu yerlər böyük Ermənistanın bir hissəsidir" sözlərini dilinə gətirmədiyinə görə ermənilər tərəfindən diri-diri yandırıldı. Digər Xocalı sakini Səriyyə Talıbova danışırdı ki, "4 mesxeti türkü və 3 azərbaycanlının erməni qəbirinin üzərində başını kəsdilər. Sonra daha 2 azərbaycanlının gözlərini çıxartdılar".

Ermənilər sağ qalmış insanlar üzərində tamamilə təhqiredici hərəkətlər həyata keçirmişdilər. Onlarıın başının dərisini soymuş, başlarını və bədəninin digər orqanlarını kəsmiş, uşaqların gözlərini çıxarmış, hamilə qadınların qarnını yarmışdılar. Hücum zamanı Xocalıda istifadəsi qadağan olunmuş 5,45 kalibrli patronlardan və kimyəvi silahlardan istifadə edilmişdir. Bütün bunlar Ermənistanın Cenevrə konvesiyasının protokollarını pozaraq, müharibə qaydalarına zidd olaraq dinc sakinlərə qarşı həyata keçirilən soyqırım olduğunu təsdiqləyir.

Xocalı soyqırımının xüsusi amansızlıqla törədilməsi rus, gürcü, ingilis, fransız, alman, amerikalı və digər ölkələrin vətəndaşı olan jurnalist və publisistləri dəhşətə gətirmişdir. Xocalı qaçqınlarının BMT, Avropa İttifaqı və Avropa Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatına müraciətində deyilir: Artıq 10 ildən artıqdır ki, biz, qaçqın vəziyyətinə düşmüş xocalılar, ürək ağrısı və eyni zamanda böyük ümidlə bütün dünyanın sülhsevər xalqlarına, beynəlxalq təşkilatlara müraciət edirik. Sizdən xahiş edirik, erməni hərbi təcavüzü nəticəsində bizim başımıza gələn bəlaya laqeyd qalmayasınız. Biz inanırıq ki, dünyanın BMT, Aİ və ATƏT kimi kifayət qədər nüfuzlu beynəlxalq təşkilatları, sülhsevər ölkələri Ermənistan kimi dövlətin belə təcavüzkarlığına və özbaşınalığına qarşı tədbir görəcəklər.

Dünyada qəbul olunmuş beynəlxalq konvensiyalar, ümumbəşəri qanunlar Xocalı faciəsi kimi soyqırımları pisləyir, yolverilməz olduğunu bildirirlər. Azərbaycan xalqı 1948-ci il 9 dekabr "Soyqırım cinayətinin xəbərdarlıq edilməsi və cəzalandırılması" konvensiyasını rəhbər tutaraq, Ermənistan Respublikasına qarşı BMT-nin Beynəlxalq Məhkəməsində iddia qaldırmaq üçün bütün hüquqi əsaslara malikdir. Dünya bilməlidir ki, bu cinayət, təkcə Azərbaycan xalqına qarşı deyil, həm də bütün sivilizasiyalı dünyaya, bəşəriyyətə qarşı yönəldilmişdir. Bu gün Ermənistanda mühüm dövlət postları tutanlar, Seyran Ohanyan, Serj Sarkisyan, eləcə də, Robert Koçaryan və digərləri baş vermiş soyqırımın günahkarları kimi beynəlxalq məhkəmə qarşısında cavab verməlidir.

***Vahid Ömərov,***
***fəlsəfə üzrə fəlsəfə doktoru***




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

6 fevral

# SƏS

Son səhifə

## ŞOK: Dünya daha bir epidemiya ilə QARŞI-QARŞIYA!



Dünya Çindən yayılan koronavirus epidemiyası ilə mübarizəyə qoşularkən Cənubi Amerika ölkələri danq qızdırması ilə savaşır. Paraqvay Səhiyyə Nazirliyi bu xəstəlikdən 14 nəfərin dünyasını dəyişdiyini açıqlayıb. Kolumbiyada isə 23 nəfər qızdırmanın qurbanı olub. Səhiyyə naziri Xulio Mazzoleni mediada çox sayda şübhəli ölüm xəbərlərinin dərc edildiyini bildirib. Nazir 14 min 500 nəfərə xəstəlik diaqnozu qoyulması, 2 min 600-dən çox insanın danq qızdırmasından əziyyət çəkməsi faktını təsdiqləyib.

Xəstələrin əksəriyyəti 60 yaşdan yuxarıdır. Bir çoxunda diabet və yüksək təzyiq kimi problemlər var. Qeyd edək ki, Kolumbiyada 23 nəfərin danq qızdırmasından öldüyü, 12 min 217 nəfərin isə bu epidemiyaya yoluxduğu bildirilir. Epidemiyanın yayılmasına səbəb kimi təmiz su çatışmazlığı göstərilir./publika.az

## "Barselona"ya bəd xəbər: Messi oyunlara zədəli çıxır




*"Barselona"nın futbolçusu Lionel Messi zədəli vəziyyətdə matçlarda oynayır. Qol.az "ESPN"ə istinadən xəbər verir ki, 32 yaşlı hücumçu artıq bir neçə həftədir ki, ombasında ağrı hiss edir. Ancaq buna baxmayaraq, argentinalı oyunçu matçlarda meydana çıxır. Bildirilir ki, buna səbəb Kataloniya təmsilçisində hazırda Messini əvəzləyəcək futbolçunun olmamasıdır. Çünki hazırda komandada Luis Suares və Usman Dembele zədədən əziyyət çəkir və oynayacaq durumda deyillər. Bundan başqa xəbərdə o da qeyd olunub ki, klubun hakimləri Messinin zədəsini ciddi hesab etmirlər və onun durumunu diqqətlə müşahidə edirlər.*

## Rusiyanın DÇ-2022-də iştirakına qadağa qoyuldu



Ümumdünya Antidopinq Agentliyi (WADA) futbol üzrə Rusiya milli komandasının Qətərdə keçiriləcək DÇ-2022-də iştirakına qadağa qoyulub. Bu haqda "beIN Sports" telekalının ərəb bölməsi xəbər yayıb. Bununla əlaqədar artıq Rusiya tərəfinin məlumatlandırıldığı da iddia olunub.

Belə bir qərarın verilməsinə Moskvadakı antidopinq laboratoriyasında dopinq testlərin manupulyasiyası səbəb olub. Hələlik bu xəbərə FİFA münasibət bildirməyib. Rusiya Futbol İttifaqı isə onlara WADA-dan hər hansı bildiriş almadıqlarını qeyd ediblər.

## Ata "Mercedes"i aşırdı, oğlu öldü



Ağcabədi rayonunda ağır yol qəzası baş verib. XəzərXəbər Daxili İşlər Nazirliyinə istinadən xəbər verir ki, fevralın 4-də saat 11 radələrində Ağcabədi rayonunun Boyat kəndi ərazisində Ağdam rayon sakini Ş.Əliyev idarə etdiyi "Mercedes" markalı avtomobili aşırıb. Nəticədə sürücü və sərnişini olan oğlu Nəcməddin xəstəxanaya yerləşdirilib, Nəcməddin orada ölüb. Ağcabədi RPŞ tərəfindən araşdırma aparılır.

## Bədəndəki artıq piyləri əridən əla üsul



Dünyanın dörd bir yanında insanların ortaq şikayətlərinin başında piylənmə gəlir.

Xüsusilə, ölkəmizdə bel, omba və ayaq bölgəsi yağlanması çox sıx görülən problemlərdəndir. Evdə tətbiq edilə bilən bu reseptlə kabusdan xilas olacaqsınız. Zəncəfil suyu ilə yağ yandırmaq üçün lazım olan məhsullar:

**5 litr su**

**1 ədəd limon**

Öncə suyu qaynadıb içərisinə dilimlənmiş zəncəfil əlavə edin. 15 dəqiqə ərzində bişirin. Daha sonra ocaqdan alıb soyumasını gözləyin. Süzgəclə süzüb için./publika.az

## Evdən 3 min manatlıq qızıl əşyaları oğurlayanlar tutulub

Yanvarın 30-da Suraxanı rayonundakı evlərin birindən iki ədəd mobil telefon və üç min manat dəyərində qızıl-zinət əşyaları oğurlamaqda şübhəli bilinən Bakı şəhər sakini, əvvəllər məhkum olunmuş E.Hüseynov rayon polis idarəsinin 31-ci polis şöbəsi əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində yaxalanıb.

Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, fevralın 3-də Kürdəmir rayonundakı MMC-lərdən birinə məxsus əkin sahəsindən suvarma sistemlərinin 20 min manat dəyərində iki ədəd mühərrikini, 63 ədəd çiləyicisini və 69 metr mis naqilini oğurlamaqda şübhəli bilinənlər - rayon sakinləri Ə.Mürsəlov, E.İbrahimov və bir yeniyetmə rayon polis şöbəsinin əməkdaşları tərəfindən saxlanılıb. Hər iki faktla bağlı araşdırmalar aparılır.



**Baş redaktor:**
**Bəhruz Quliyev**
**Baş redaktorun müavinləri:**
**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur
Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 4600**